www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 iyun 2024-cü il Cümə № 110 (8483) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda elektron siqaret qadağası gündəmdə

yazısı səh.14-də

# KONSTİTUSİYA MƏHKƏMƏSİ QƏRARINI VERDİ - SEÇKİLƏRİN TARİXİ...

Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentin sorğusuna baxılaraq məqsədəuyğun hesab edilib; **hüquqşünas:** "Prezident seçkilərin keçiriləcəyi tarixi bu gün də, 10 gün sonra da elan edə bilər"

yazısı səh.6-da




# Türkiyə sülh sazişindən əvvəl sərhədi açacaq?

İrəvandan Türkiyə ilə Azərbaycanın arasını vurmağa yönəlik ağılsız cəhd; Bakıdan reaksiyalar...

yazısı səh.9-da

**Gündəm**

### İran bu gün yeni prezidentini seçir



Tehran meri və daha bir namizəd son anda geri çəkildi

yazısı səh.5-də

### Separatçıların məhkəməsi canlı yayımlana bilər(mi)

yazısı səh.7-də

### Gürcüstandakı soydaşlarımızın sərhədlə bağlı təklifi

yazısı səh.3-də

### 3909 müəllim yeri necə doldurulacaq?

yazısı səh.12-də

### Xaricə gedənlərə "stop" qərarları sürətlə artır

yazısı səh.3-də

### Bakı daha bir NATO ölkəsi ilə hərbi əməkdaşlığı gücləndirdi

yazısı səh.10-da

### Taksilər azalacaq, qiymət bahalaşacaq -1 iyul gözləntisi

yazısı səh.3-də

### Fransa mediası Makronu bitirir

yazısı səh.10-da

### Qriqoryan ABŞ kəşfiyyatının İrəvanda "danışan dili"dir

yazısı səh.4-də

### Qadınları din adı altında aşağılamaq cəhdi

yazısı səh.13-də

### Kərə yağı bu səbəbdən bahalaşdı

yazısı səh.2-də

### Rəşt-Xəzər dəmir yolu açıldı - Azərbaycanın uduşu...

yazısı səh.15-də




### Adam olmayan Şiff yenə Azərbaycana qarşı

yazısı səh.5-də



*Qüdrət Həsənquliyev:*

### "Çalışacaqlar ki, biz parlamentə düşməyək"

yazısı səh.6-da



### O'Brayenin Bakıya "ikibaşlı" səfəri

yazısı səh.8-də

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024



## İlham Əliyev BMT-nin baş katibinin müavinini qəbul edib

**Prezident İlham Əliyev iyunun 27-də Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersonu qəbul edib.**

İnger Anderson COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Bildirdi ki, ölkəmiz qlobal iqlim dəyişiklikləri məsələsinin müzakirəsi baxımından bütün dünyanın toplaşdığı bir mərkəzə çevriləcək. O vurğulayıb ki, Azərbaycanda keçiriləcək COP29 çox vacibdir. Belə ki, burada iqlim dəyişikliyi ilə əlaqədar istər maliyyə, istər şəffaflıq hesabatlarının təqdim olunması və digər parametrlər nöqteyi-nəzərindən çox ciddi və önəmli qərarların qəbul edilməsi gözlənilir.

Rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsini bildirən qonaq 2026-cı il iyunun 5-də Dünya Ətraf Mühit Günü münasibətilə UNEP-in xətti ilə Azərbaycanda Dünya Ətraf Mühit Gününün keçiriləcəyini və bunun da qlobal miqyasda ətraf mühit baxımından ən vacib tədbirlərdən biri olduğunu deyib.

Xoş sözlərə görə minnətdarlıq edən Prezident İlham Əliyev UNEP ilə Azərbaycan arasında əməkdaşlıqdan, İnger Andersonun regionlarımıza səfər edərək oradakı ekomühitlə tanış olmasından və gənclərlə görüşündən məmnunluğunu bildirib.

Azərbaycanın neft və qaz ixrac edən ölkə olmasına baxmayaraq, yaşıl enerjiyə keçid sahəsində planlarına toxunan dövlətimizin başçısı deyib ki, bu, siyasi iradəmizin olduğunu göstərir.

Prezident İlham Əliyev 200-ə yaxın dövlətin Azərbaycanın COP29-a sədrliyini yekdilliklə dəstəkləməsini ölkəmizə olan etimadın göstəricisi kimi dəyərləndirib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan COP29-un sədri olaraq dünya ölkələri arasında körpülərin, etimadın və həmrəyliyin qurulmasına öz töhfəsini verəcək.

Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmiz Qlobal Cənubu təmsil edir və 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri olan və Avropa İttifaqı ölkələri ilə də yaxşı əlaqələrə malik Azərbaycan Qlobal Cənubla Qlobal Şimal arasında da iqlim dəyişikliyi mövzusunda həmrəyliyin gücləndirilməsi prosesinə öz töhfəsini verəcək.

Söhbət zamanı tullantıların idarə olunması, Xəzər dənizinin ətraf mühit məsələləri, onun suyunun azalması və bu istiqamətdə daha sistemli işin, həmçinin əməkdaşlığın həyata keçirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.



## Vahid Ələkbərov "ən çox qazanan rusiyalı" oldu

**2023-cü il üçün alınan dividentlərə görə 50 ən varlı rusiyalının ikinci illik reytinqi açıqlanıb.**

Bu barədə "Forbes" məlumat yayıb.

"Reytinqə divident gəliri 177,4 milyard rubl (2 milyard dollar) dəyərində qiymətləndirilən "LUKoil"un əsas səhmdarı Vahid Ələkbərov başçılıq edir", - məlumatda deyilir.

Qeyd olunur ki, "LUKoil" həm 2022, həm də 2023-cü illərdə divident ödəyən bir neçə ən böyük Rusiya şirkətlərindən biri olub.

Xatırladaq ki, 28,6 milyard dollar sərvətlə Rusiyanın 125 ən varlı adamı siyahısına "Lukoil" neft şirkətinin şəriki Vahid Ələkbərov başçılıq edir.

# Kərə yağı bu səbəbdən bahalaşdı




**Ölkədə satılan kərə yağlarının qiyməti bahalaşıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, yanvar ayında yerli kərə yağının 1 kiloqramının orta aylıq pərakəndə satış qiyməti 18,91 manat idisə, may ayında bu rəqəm 19,36 manata çatıb.**

Beləliklə, may ayında ilin əvvəli ilə müqayisədə yerli kərə yağının qiyməti 2,3 faiz bahalaşıb. Əgər yanvar ayında idxal kərə yağının 1 kiloqramının orta aylıq pərakəndə satış qiyməti 19,53 manat idisə, may ayında bu rəqəm 19,79 manat olub. Bu da 1,3 faiz artım deməkdir.

Məsələyə münasibət bildirən iqtisadçı ekspert Xalid Kərimli Bakupost.az -a deyib ki, Avropada heyvandarlıqda məhsuldarlığın azalması səbəbindən süd məhsulları bahalaşıb. Hazırda bütün dünyada süd məhsullarının qiymətində artım müşahidə olunur: "Azərbaycanda yerli istehsalın olmasına baxmayaraq, bir çox istehsalçılar xammalı xaricdən gətirir. Digər tərəfdən, onlar idxal məhsullarının qiymətinə həssas yanaşır. Çünki idxal faktoru süd və yağ məhsullarında daha çoxdur. Azərbaycan kərə yağını Belarus, İran, Yeni Zelandiya və digər ölkələrdən gətirir. Ölkədə südlük istiqamətli heyvanlar tələbatı ödəyəcək sayda deyil. Onsuz da iqlim dəyişmələri, otlaq sahələrinin azalması və sairlə bağlı xərclər artıb. Yerli süd məhsullarımız da bahadır. İdxal qiymətləri yüksəldikcə bazarda həm idxal, həm də yerli kərə yağının qiyməti artır".

## Azərbaycan Ermənistana niyə 49 min avro ödəyib?

**2024-cü il yanvarın 1-dən mayın 31-dək olan dövr ərzində Azərbaycan aviaşirkətləri Ermənistan Respublikasının hava məkanı vasitəsilə həyata keçirilən uçuşlar üçün "Armaeronaviqasiya" şirkətinə 49 min 459 avro ödəyib. Bu barədə Ermənistan Mülki Aviasiya Komitəsinin NEWS.am-ın yazılı sorğusuna cavabında deyilir.**

Ödəniş müəyyən olunmuş qaydada "Eurocontrol" ("Avro-nəzarət") təşkilatının mərkəzi ofisi vasitəsilə həyata keçirilib. Qeyd edək ki, "Armaeronaviqasiya" QSC Ermənistanın hava məkanında uçuşlar üçün aeronaviqasiya xidmətləri göstərir.

"Eurocontrol" Hava Naviqasiyasının Təhlükəsizliyi üzrə Avropa Təşkilatıdır.

Xatırladaq ki, 2023-cü ilin ilk altı ayı üçün ödəniş məbləği 40 min avrodan bir qədər az, bütövlükdə 2023-cü il üçün isə təxminən 80 min avro olub.

## Leysan, yağış və dolu...

**Bu gün-iyunun 28-də bəzi rayonlara qısamüddətli leysan xarakterli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.

Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20° isti, gündüz 25-30° isti, dağlarda gecə 6-11° isti, gündüz 13-18° isti olacaq.




## Qriqorçuk "Neftçi"nin baş məşqçisi oldu

**"Neftçi"nin baş məşqçisi vəzifəsinə ukraynalı mütəxəssis Roman Qriqorçuk təyin edilib.**

Təcrübə mübadiləsi məqsədilə beynəlxalq tədbirdə iştirak etmək üçün Bakıda səfərdə olan mütəxəssislə anlaşma əldə olunub və 2 illik müqavilə imzalanıb.

Qriqorçukun "Qəbələ"də çalışdığı 3,5 mövsümlük fəaliyyət dövrünü də uğurlu hesab etmək olar. Belə ki, onun başçılığı altında klub Azərbaycan Premyer Liqasının bürünc və gümüş medallarına yiyələnib, ölkə kubokunun finalçısı olub, eləcə də tarixində ilk dəfə UEFA Avropa Liqasının qrup mərhələsinə çıxmağı bacarıb və daha sonra bu uğuru təkrarlayıb.

## Daşkəsəndə saxlanılan vəzifəli şəxslərlə bağlı qərar

**Daşkəsən Rayon İcra Hakimiyyətinin korrupsiyaya görə saxlanılan vəzifəli şəxsi məhkəməyə çıxarılıb. "Qafqazinfo" xəbər verir ki, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror Daşkəsən Rayon İcra Hakimiyyətinin memarlıq və tikinti şöbəsinin müdiri Elman Məmmədov barəsində qətimkan tədbiri seçilməsini tələb edib.**

Binəqədi Rayon Məhkəməsi prokurorun təqdimatını əsaslı hesab edib.

Qərara əsasən, E.Məmmədov haqda vəzifədən kənarlaşdırılmaqla ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatla icra hakimiyyətinin ümumi şöbəsinin işçisi Yaqub Bayramov da saxlanılmışdı. Y.Bayramovdan izahat alındıqdan sonra sərbəst buraxılıb.



## Birinci Qarabağ müharibəsinin şəhidi Xaçmazda dəfn edilib



**Bakı şəhərindəki Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilmiş Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Hörmət Beytulla oğlu Baratovun meyitinin qalıqları Xaçmaz rayonuna aparılıb. "Report" xəbər verir ki, şəhidin nəşi Xaçmaz rayonunun Nərəcan kəndində ailəsinə təhvil verilib.**

Şəhidlə vida mərasimi keçirilib, o, Xaçmaz rayonu Nərəcan kənd qəbiristanlığında dəfn olunub.

Qeyd edək ki, Hörmət Beytulla oğlu Baratov 1975-ci il sentyabrın 24-də Xaçmaz rayonunun Nərəcan kəndində anadan olub. O, 1994-cü il aprelin 18-də Ağdam rayonunun Güllücə kəndi istiqamətində gedən döyüşlərdə itkin düşüb.



## Təqaüdə göndərilən generalın vəzifəsi ona həvalə edildi

**Heydər Əliyev adına Hərbi İnstitutun rektoru general-mayor Füzuli Salahov vəzifəsindən azad edilib.**

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, general Salahov son yaş həddi ilə bağlı təqaüdə göndərilib.

Rektor vəzifəsinin icrası Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanova həvalə edilib.

Müharibədən bir müddət sonra N.Mövlanov Heydər Əliyev adına Hərbi İnstitutun rəis müavini təyin edilib. Qeyd edək ki, Heydər Əliyev adına Hərbi İnstitut Heydər Əliyev adına Ali Hərbi Məktəbin hüquqi varisidir. İnstitut Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərir.

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Gürcüstandakı soydaşlarımızın təklifi: "Azərbaycana bu yolla gələk..."

## Deputat: "Gürcüstan azərbaycanlıları üçün ayrıca qayda müəyyən olunmalıdır"




**Nazirlər Kabineti ötən həftə koronavirus pandemiyası ilə əlaqədar xüsusi karantin rejimini daha 3 ay uzatdı. Bu isə Gürcüstanda yaşayan soydaşlarımızı yenə məyus edib. Onlar Azərbaycana gəlib-getmək, istirahət etmək, qohumlarını ziyarət etmək istəyirlər. Təyyarə biletlərinin qiymətinin baha olması da soydaşlarımızı narahat edir. Gürcüstan Azərbaycanlıları Milli Konqresinin rəhbəri Əli Babayev Bizimyol.info-ya deyib ki, artıq 4-cü ildir ki, Gürcüstandakı azərbaycanlılar quru sərhədlərinin bağlı olmasından əziyyət çəkir.**

"Təyyarə qiymətləri çox bahadır. Ya təyyarə ilə bilet qiymətlərini ucuzlaşdırsınlar, ya da heç olmasa həftədə bir dəfə bir qatar ayırsınlar ki, Gürcüstana gələ bilək. Necə ki, təyyarədə yoxlama keçirilmir, bunu qatarda da həyata keçirmək olar. Biz Azərbaycanın üzünə həsrət qalmışıq", - deyə Əli Babayev qeyd edib.

Əli Babayev bildirib ki, Azərbaycanda da Gürcüstana istirahət və ticarət məqsədilə gəlmək istəyən çox sayda insan var. Amma karantin rejiminin uzadılması çərçivəsində quru sərhədlərinin bağlı saxlanılması hər kəsin bu arzusunu ürəyində qoyur: "İnsan istəyir ki, Azərbaycana gəlsin, işğaldan azad edilmiş torpaqları ziyarət etsin. Ümidimiz yenə də cənab Prezidentədir. Bizim üçün bir şərait yaratsınlar. Bizə xüsusi bir güzəşt etsinlər. Xahiş edirik ki, bizə bir güzəşt edin. Elə bir şərait yaradılsın ki, biz Azərbaycana rahat gedib-gələ bilək", - deyə Əli Babayev ölkə başçısına da müraciət edib.

**Əli Babayev qeyd edib ki, Kaxetidə və Qardabanidə olan azərbaycanlılar da Azərbaycana gəlmək istəyir:** "Birinci Şıxlı, İkinci Şıxlı və digər müxtəlif kəndlər var ki, qohum-əqrəbadırlar. Sərhədlər bağlıdır deyə ortada qalıblar. Hamının imkanı yoxdur ki, təyyarə ilə gəlsin".

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa** deyib ki, Gürcüstan azərbaycanlıları üçün ayrıca qayda müəyyən olunmalıdır: "Biz əcnəbilərlə soydaşlarımızı ayırmalıyıq. Soydaşlar haqqında qanun qəbul etməliyik. Hər hansı şəkildə Gürcüstanda yaşayan həmvətənlərimizi əcnəbi statusunda görməməliyik. Gördükcə özümüzdən uzaqlaşdırırıq. Onların rahat şəkildə gedib-gəlməsinə şərait yaratmalıyıq. Başa düşürəm ki, karantin vəziyyəti bu və digər səbəblərdən uzadılıb. Amma bunun acısını-ağrısını Azərbaycan vətəndaşları çəkə bilməz. Ona görə də soydaşlarımıza ayrıca bir qayda tətbiq olunmalıdır. Dünyanın bir çox ölkələrində də belə bir qaydalar var. O baxımdan, fikrimcə, bu, haqlı iraddır. Dəfələrlə biz məsələ qaldırmışıq ki, Gürcüstanda yaşayan soydaşlarımız çox böyük sıxıntı içindədir. Təyyarə bileti baha olduğuna görə onların böyük əksəriyyəti gəlib-getmək imkanından məhrumdur, valideynlərinə baş çəkə bilmirlər. Biz bununla Gürcüstanla Azərbaycanın əlaqəsinin qırılmasına gətirib çıxaran bir prosesi irəli körükləyirik. Buna yol verməmək olmaz".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Xaricə gedənlərə "stop" qərarları sürətlə artır

## Əkrəm Həsənov: "Vətəndaşın borcu olması onun ölkədən çıxışına qadağa qoyulmasına əsas vermir"




**"Ölkə xaricinə çıxmaq istəyən vətəndaşlar cərimələrini və ya bank ödənişlərini ödəməmiş ölkədən xaricə buraxılmırlar. Bunu öncədən bilet alıb, daha sonra cəriməsi və ya banka kredit borcu olduğuna görə geri qaytarılan bir çox vətəndaş qeyd edir. Məbləğin isə önəmi yoxdur. Tutaq ki, piyada keçidindən düzgün istifadə etmədiyinizə görə sizə 30 manat cərimə protokolu tərtib edildi və ya pandemiya dövründən qalan yüz manatlıq "maska" cəzanız varsa, aldığınız avia və ya avtobus biletinin keçərsiz olma ehtimalı əlli faizin üzərindədir. O baxımdan, yaxşı olar ki, xaricə getmək istəyən vətəndaşlar məhdudiyyətlərinin olub-olmamasını öncədən yoxlasınlar". Bu barədə Bizimyol.info yazır.**

Məqalədə belə bir haqlı sual qoyulur: "Yaxşı, bəs bu haqda məlumatı hansı qurum verməlidir? Maraqlıdır ki, burada da prosedur olduqca mürəkkəbləşdirilib. Bir neçə il öncə bu haqda Ədliyyə Nazirliyinin müvafiq portalına şəxsiyyət vəsiqəsinin seriya nömrəsini və tələb olunan digər məlumatları qeyd edərək, ölkə xaricinə çıxmağa məhdudiyyət var, ya yox, öyrənmək olurdu. İndi qurumun saytında o sistem demək olar ki, işləmir. Vətəndaşlar Daxili İşlər Nazirliyinin müvafiq saytına yönəlib, cərimə borcları haqqında məlumat əldə etmək istəyirlər. Ancaq bu platformada çıxan məlumatlarla "asanlogin" adlı ASAN Xidmətə məxsus şəxsi məlumatların yerləşdiyi saytdakı məlumatlar çox vaxt üst-üstə düşmür".

Hazırda tətbiq olunan qaydalar nə dərəcədə qanunidir? Vətəndaşa borcu, cəriməsi olması ilə bağlı məlumatın məhz aeroportda, ölkə sərhədində verilməsi və geri qaytarılmasına görə təzminat tələbi irəli sürülə bilərmi? Belə iddiaların perspektivi varmı?

**Tanınmış vəkil Əkrəm Həsənov** "Yeni Müsavat"a deyib ki, məhkəmə qərarı olmadan heç bir vətəndaşın ölkədən çıxışına "stop" qoyula bilməz: "Vətəndaşın borcu olması onun ölkədən çıxışına "stop"un qoyulmasına əsas vermir. Vətəndaşın borcunun olması o demək deyil ki, o, ölkədən çıxa bilməz. Tətbiq olunan qadağalar tam qanunsuzdur. Bunu edənlər Azərbaycan qanunlarını heçə sayır, qanunsuzluq edirlər".

**Əkrəm Həsənov deyib ki, vətəndaşın borcu ilə bağlı məhkəmə qərar verə bilər:** "Əgər vətəndaşın borcu varsa, həmin borcu ödəməkdən yayınırsa, ölkədən çıxarsa qayıtmayacağı ehtimalı varsa, bu halda məhkəmə ölkədən çıxışına qadağa qoyulması barədə qərar verə bilər".

Əkrəm Həsənov deyib ki, elə vətəndaş var ki, borcunun olması barədə məlumatsızdır və bilet alıb aeroporta yollananda ona deyirlər ki, "borcunuz var, gedin borcu ödəyin": "Həmin dar macalda əksər vətəndaşların borcu ödəmək imkanı olmur və buna görə də od qiymətinə aldıqları təyyarə bileti də "yanır". Bu qanunsuzluğa yol verməklə vətəndaşların konstitusiya ilə təsbit olunan hərəkət azadlığı qanunsuz olaraq məhdudlaşdırılır. Bu praktika qanunsuzdur və buna son qoyulmalıdır".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Taksilər azalacaq, qiymət kəskin bahalaşacaq -1 iyul gözləntisi

## Ekspert: "Qiymət artımı yeni avtomobil sahiblərinin bu sahəyə marağını artıracaq"

**İyulun 1-dən etibarən taksi fəaliyyəti ilə bağlı yeni qaydalar qüvvəyə minəcək. Nazirlər Kabinetinin təsdiq etdiyi yeni qaydalar isə kifayət qədər ciddidir. Ona görə də bu vaxtadək fəaliyyət göstərən 45-50 min taksi sürücüsünün heç də hamısı yeni tələbləri qarşılaya bilməyəcək.**




Belə vəziyyətdə, iyulun 1-dən sonra nə baş verəcək?

Ekspert Fuad İbrahimov Bizim.media-ya açıqlamasında bildirib ki, yeni qaydaların tətbiqinə bir neçə gün qalsa da biz görürük ki, cəmi 7 min sürücü icazə vərəqi alıb:

"Bu da onu göstərir ki, icazə vərəqi alan sürücülərin sayı tələbatdan dəfələrlə aşağıdır. Burada məsələyə iki cür - statistik və praktik yanaşma var. Bizim mental xüsusiyyətimiz belədir ki, bütün məsələləri müddət bitməsinə bir neçə gün qalmış və hətta sonuncu gün həll edirik. Fikrimin təsdiqi üçün avtomobillərin texniki baxış və sığorta məsələsini xatırlatmaq istəyirəm. Çoxluq əsasən sonuncu gün hərəkətə keçir. Ona görə də iyunun son günlərində icazə vərəqi almaq istəyənlər daha çox olacaq.

İkinci yanaşma yeni tələblərə cavab verəcək avtomobillərin ortaya çıxarılmasıdır. Məlumdur ki, hazırda ölkənin avtomobil parkındakı maşınların ən azı 70 faizi 10 il və daha çox istismar olunan avtomobillərdir.

Ona görə də hesab etmirəm ki, bu gün Bakıda və ölkədə yeni tələblərə cavab verən onminlərlə avtomobil olsun. İndiki reallıqdan çıxış edib deyə bilərik ki, gələn həftə güclü taksi qıtlığı və kəskin qiymət artımı ilə rastlaşa bilərik. Çünki tələb təklifi üstələyəndə qiymət artımı qaçılmaz olur. Ona görə də biz iyulun 1-dən sonra fərqli mənzərənin şahidi ola bilərik".

**Fuad İbrahimov onu da əlavə edib ki, qiymət artımı yeni avtomobil sahiblərinin bu sahəyə marağını artıracaq:** "Bundan əlavə, qiymət artımı ictimai marağı çoxaldacaq. Bununla belə, heç kəs deyə bilməz ki, "Prius"lar iyulun birindən yoxa çıxacaq. Ola bilsin ki, həmin avtomobillər qanunsuz yolla fəaliyyətlərini davam etdirməyə çalışacaq. Bundan başqa, bir çox ölkələrdə qanunsuz onlayn taksi xidmətləri var. Ehtimal ki, bu varianta da əl atılacaq. Yaxın qısa zamanda bu qədər taksini bu və digər səbəbə görə dövriyyədən çıxarmaq asan olmayacaq".

Yeni MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Qriqoryan ABŞ kəşfiyyatının İrəvanda "danışan dili"dir

## Vaşinqton onu Paşinyanın əvəzinə ehtiyat variant kimi saxlayır; Təhlükəsizlik Şurasının katibinin Rusiya və Azərbaycanı hədəfə alan ittihamlarına Moskvadan və Bakıdan sərt reaksiyalar var

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan son açıqlamasında Moskvanı və Bakını hədəfə alıb. "Rusiya gəlib Qarabağı bizim əlimizdən alıb Azərbaycana qaytardı. Bu, Rusiyadan tamamilə asılı olduğumuz vaxt baş verdi. Bu, reallıqdır. Rusiya aldı, mən bunu təsdiq edirəm.**

Rusiyanın icazəsi olmasaydı, bu müharibə baş verməzdi. Bunun müqabilində Rusiyanın Azərbaycandan nə aldığını deyə bilmərəm", - deyə TŞ sədri bildirib. Qriqoryan deyib ki, Ermənistanın Rusiya ilə hərbi-texniki əməkdaşlığı 96 faizdən 10 faizə enib: "Bu, Rusiyanın qərarı və seçimi idi. Rusiya silah və sursat verməmək qərarına gəldi və bu günə qədər də təmin etmirlər. Onlar mütəmadi olaraq gileylənirlər ki, Ermənistan başqa ölkələrdən silah alır və 2021 və 2022-ci illərdə imzalanmış müqavilələrə əsasən silah vermir".

**Təchizatdan imtinanı necə əsaslandırdıqlarını soruşduqda, Təhlükəsizlik Şurasının katibi qeyd edib ki, Ermənistan əsas səbəbin Ukrayna ilə müharibə olması ilə bağlı izahatları eşidib.** "Ancaq 2021-ci ildə imzalanmış müqavilələr də var. Ad çəkmək istəmirəm, amma demək istəyirəm ki, bir dəfə yüksək vəzifəli şəxs demişdilər ki, Rusiya Ermənistana silah və sursat verərsə, Ermənistanın mövqeyi daha da sərtləşəcək. Onları təmin etməmələrinin səbəbi də budur", - deyə Təhlükəsizlik Şurasının katibi bildirib.

Ermənistanın TŞ katibinin ABŞ kəşfiyyatına yaxın olduğu barədə iddialar yeni deyil. Tez-tez Vaşinqtonda bağlı qapılar arxasında görüşlər keçirən Qriqoryanın Paşinyanın yerinə hazırlandığı haqda da iddialar var. Onun anti-Rusiya ritorikası aydındır, amma sülh sazişi gündəmdə olduğu vaxtda ABŞ-ın "danışan dili"nin bu cür açıqlamaları diqqət çəkir. Onun Bakıda həbsdə olan erməni separatçıları da "əsir" kimi təqdim etmək cəhdi, bunu sülh prosesində az qala həlledici amil kimi izah etmək cəhdi təkcə Qriqoryanın deyil, həm də erməni lobbisinin seçkilər ərəfəsi "hədiyyə" etmək istəyən Ağ Ev administrasiyasındakı bəzi dairələrin mövqeyidir.



**"Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Qarabağın itirilməsinə görə Rusiyanı günahlandıraraq öz xalqını aşağılayıb". Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə belə reaksiya verib.** "Hakimiyyət təmsilçisi kimi bu cür şəxslər öz xalqını aşağılayırlar. Ermənistan vətəndaşları öz ərazilərini (Zaxarova Qarabağı Ermənistan ərazisi hesab edir? - red.) müdafiə etdilər, canlarını verdilər və bunu tarixi əhəmiyyətli hesab etdilər. Ermənistanın bir dövlət kimi uzun illər ideologiyası məhz bu tezislər üzərində qurulub. Onlar bilirdilər ki, niyə döyüşə gedirlər, nə üçün öz rifahlarını qurban verirlər, arvadlarını, uşaqlarını dulluğa, yetimliyə məhkum edirlər. Onların xatirəsinə necə xəyanət etmək olar? İnsanların öz xalqının tarixi yaddaşına bu qədər alçaldıcı münasibət göstərməsi mənim üçün təəccüblüdür", - deyə Zaxarova qeyd edib. "Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Rusiyanın Qarabağı Azərbaycana "təslim etməsi" ilə bağlı dedikləri tamamilə həqiqətə uyğun deyil". Bunu isə Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin danışıb. Karasin vurğulayıb ki, Qriqoryan bu məsələ ilə bağlı erməni siyasətçilərinin açıqlamaları ilə tanış olmalıdır. "Bu, tamamilə doğru deyil. Erməni siyasi xadimlərinin, o cümlədən yüksək rütbəli rəhbərliyin qeydlərinə və çıxışlarına müraciət etmək lazımdır. Bu sualların cavabları orada var. Armen Qriqoryan həmin qeydləri oxusun".

**Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də ittihamlara münasibət bildirib:** "Ermənistan Təhlükəsizlik Şurasının katibinin bu açıqlaması əvvəlki və indiki Ermənistan siyasi-hərbi rəhbərliyinin məğlubiyyətini ört-basdır etmək, günahı başqasının üzərinə yıxmaq və özünə bəraət qazanmaq cəhdindən başqa bir şey deyildir".

**Hikmət Hacıyev deyib**: "Azərbaycan Ordusu döyüş meydanında öz sözünü deyərək, şəhid verərək Ermənistan ordusunu 44 günlük Vətən müharibəsində məğlub etmiş, mütləq hərbi qələbə qazanmış, Ermənistanın 30 il davam edən hərbi işğalına son qoymuş və Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etmişdir. Ümumən Ermənistan rəhbərliyi ordu sıralarında 10.000 nəfərdən artıq fərarinin olduğunu özü etiraf etmişdir. 2023-cü ilin senyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində 23 saatdan az bir müddətdə Azərbaycan ərazisində qeyri-qanuni qalmaqda davam edən Ermənistan ordusunun qalıqları tərk-silah edilmiş və Qarabağ tam azad edilmişdir. Ümumən Ermənistan ordusunun 5 milyard ABŞ dollarından artıq dəyəri olan silah və sursatı məhv edilmiş və ya qənimət götürülmüşdür.

Təəssüflə qeyd etmək istərdik ki, bu kimi açıqlamalar Ermənistanın siyasi-hərbi rəhbərliyinin təfəkküründə hələ də revanşizm xülyalarının qalmasının təzahürüdür. Ermənistanın siyasi-hərbi rəhbərliyində olan şəxslərə tarixi səhvləri yenidən təkrarlamamaq üçün revizionizm və revanşizm xülyalarından tamamilə əl çəkməyi, militarizasiya siyasətinə son qoymağı tövsiyə edirik".

Rəsmi Moskva və rəsmi Bakı ittihamlara cavab versələr də, Zaxarovanın fikirləri birmənalı qarşılanmayıb. Xüsusən də "Ermənistan vətəndaşları öz ərazilərini müdafiə etdilər" deməklə Qarabağın kimə aid olduğuna şübhə yaratmağa cəhd edib. "Paşinyan deyir ki, Qarabağ Azərbaycana aiddir və onun ərazi bütövlüyünü tanıyırıq, Qriqoryan isə ittiham edir ki, Dağlıq Qarabağı rus alıb guya bizə verdi. Axı Paşinyan bəyan edib ki, Praqada qəbul edilmiş sənədlər var və Azərbaycana qarşı heç bir ərazi iddiamız yoxdur. Görünür ki, Armen tarixi tərsinə oxuyub" - bu fikirlərin müəllifi **professor Qabil Hüseynli**dir. "Yeni Müsavat"a danışan professorun sözlərinə görə, İrəvan Bakıdan 10-cu sülh paketini aldığı bir vaxtda TŞ katibinin yersiz açıqlaması qızışdırıcı xarakter daşıyır. Onun fikrincə, Qriqoriyan anti-Rusiya əhval-ruhiyyəsini gücləndirmək üçün daxili auditoriyaya yönəlik belə bəyanatlar verib: "Erməni xalqına demək istəyir ki, Rusiya müttəfiqimiz idi və kömək etmədi. Yəni rus əsgəri erməni hərbçinin yerinə döyüşməli imiş. Demək istəyir ki, Rusiya bizi qorumadı və ondan müttəfiq olmaz, ona görə də KTMT-də nə işimiz var?! Amma yalan danışır. Onun baş naziri etiraf edir ki, bu ərazilər işğal altında olub. Dağlıq Qarabağ nə vaxtdan ermənilərin olub ki, onu rus alıb bizə versin? Əksinə, bizim torpağımızı Birinci Qarabağ müharibəsində ruslar alıb onlara vermişdilər".

**Analitik Elxan Şahinoğlunun şərhinə görə, Zaxarova guya Qriqoryanı hədəf alıb, əslində Azərbaycanın ərazi bütövlüyü əleyhinə fikirlər söyləyib:** "Onun sonrakı cümləsi də bundan xəbər verir: "Ermənilər bilirdilər ki, niyə döyüşə gedirlər, nə üçün öz rifahlarını qurban verirlər, arvadlarını, uşaqlarını dulluğa, yetimliyə məhkum edirlər. Onların xatirəsinə necə xəyanət etmək olar?" Zaxarova açıqlamasıyla Azərbaycan torpaqlarını işğal edənlərdən qəhrəman obrazı yaradıb". **Politoloqun zənnincə, Xankəndidə konsulluq xidmətinin açılmasını təklif edən Karasin də müəmmalı açıqlama verib:** "Karasin Qriqoryanın açıqlamasının həqiqətə uyğun olmadığını belə izah edib: "Qriqoryan bu məsələ ilə bağlı erməni siyasətçilərin açıqlamaları ilə tanış olmalıdır". Karasin hansı çıxışları və qeydləri nəzərdə tutub? Görünür, Karasin demək istəyib ki, Rusiya Qarabağın işğal altında və separatçıların nəzarəti altında qalması üçün əlindən gələni etməyə çalışıb, ancaq işləri qərbpərəst baş nazir Nikol Paşinyan korlayıb".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

## AŞ PA Ermənistana çağırış etdi



**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) öz qətnaməsində Ermənistanda siyasi ab-havanın həddən artıq qütbləşdiyini bəyan edib. AŞ PA həmçinin Ermənistan və Azərbaycan arasında sərhədin delimitasiyası prosesinin başlanmasını alqışlayıb.**

AŞ PA-nın Ermənistanın öhdəliklərinin monitorinqi üzrə həmməruzəçiləri Kimmo Kilyunen (Finlandiya) və Boriana Oberqin (İsveç) hesabatında Ermənistan hakimiyyətinin Venesiya Komissiyasının tövsiyələrinə uyğun olaraq həyata keçirdiyi seçki islahatlarını alqışlanıb. AŞ PA hesab edib ki, Ermənistanda həqiqətən demokratik seçkilərin keçirilməsi məqsədinə əsasən nail olunub.

AŞ PA Ermənistandakı siyasi ab-havanın həddindən artıq qütbləşməsindən təəssüfləndiyini bildirib. Assambleya bütün siyasi maraqlı tərəfləri parlament çoxluğu ilə müxalifət arasında münasibətlərin yaxşılaşdırılması, xüsusən də müstəqil kollegial orqan və institutlara təyinat prosedurlarının siyasətdən kənarlaşdırılması məqsədilə dialoqa çağırıb.

## "Qonşularımıza qarşı ərazi iddiamız yoxdur" - erməni spiker



**"Ermənistan Avropa İttifaqının bir hissəsi olmaq istəyir". Bunu Ermənistan parlamentinin sədri Alen Simonyan Latviyaya səfəri zamanı Rus.LSM-ə bildirib. "Uzunmüddətli sülhün bərqərar olması üçün dəstəyə ehtiyacımız var. Qonşularımıza qarşı heç bir ərazi iddiamız yoxdur", - o qeyd edib.**

"Bu işdə həm Latviyanın, həm də digər Avropa tərəfdaşlarının köməyinə ehtiyacımız var. Biz Latviya və Aİ üzvlərinin dəyərlərini paylaşırıq, ona görə də Aİ ailəsinin tamhüquqlu üzvü olmaq üçün bizə dəstəyə ehtiyac var", - Simonyan söyləyib.

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Adam olmayan Şiff yenə Azərbaycana qarşı

## Ermənipərəst konqresmen və başının dəstəsi dövlət katibinə məktubda göstərib ki, "Dağlıq Qarabağda nəsli kəsilməkdə olan erməni irsini qorumaq lazımdır" - üç partiyadan etiraz

**Ermənipərəst ABŞ konqresmeni Adam Şiff və onun konqresdəki qırx yeddi tərəfdarı dövlət katibi Antoni Blinkenə məktub ünvanlayıb. "Yeni Müsavat" yazır ki, məktubda Birləşmiş Ştatlar bütün gələcək diplomatik danışıqlarda "Dağlıq Qarabağda nəsli kəsilməkdə olan erməni irsinin qorunmasını prioritet hesab etməyə çağırılıb". Konqresmenlərin göndərdiyi məktubda deyilir: "Azərbaycanın 2023-cü ilin sentyabrında "artsax"a hərbi hücumundan sonra Azərbaycanın həm bu regionda, həm də onun hüdudlarından kənarda erməni mədəniyyətini məhv etmək strategiyasını davam etdirdiyinə dair artıq sübutlar var".**

"Erməni soyqırımından sonra Türkiyə hökumətlərinin etdiyi kimi, Azərbaycanın "artsax"da erməni sivilizasiyasının son qalıqlarını məhv etmək üçün birgə səylərindən daha aydın bir sübut yoxdur. Biz Şiffin erməni mədəni irsinin qorunmasının təmin edilməsində rəhbərliyini alqışlayırıq və onun Azərbaycanı bəşəriyyətə qarşı cinayətlərinə görə məsuliyyətə cəlb etmək üçün davamlı səylərini yüksək qiymətləndiririk", - bunu isə ABŞ-dakı erməni lobbi təşkilatı ANCA-nın icraçı direktoru Aram Hambarian bildirib. Konqresmen, heç vaxt adam olmayan Adam Şiff Kaliforniya ştatında ABŞ-dakı erməni icmasının nümayəndələrinin yaşadığı bölgəni təmsil edir. O, ABŞ Konqresində erməni qrupunun sədr müavinidir, həmişə ermənipərəst və anti-Azərbaycan mövqeyi ilə seçilib. 44 günlük müharibədən sonra o, dəfələrlə "bütün erməni əsirlərin və saxlanılan digər şəxslərin" geri qaytarılmalı olduğunu bildirib. Bu dəfə onun topladığı 47 konqresmen iddia edir ki, guya erməni "abidələrinin" dağıdılmasına dair hansısa "sübutlar" var. Yəqin ki, ermənipərəst konqresmenlərin sübut dedikləri, Xankəndidə separatçı yuvalarının yıxılmasını nəzərdə tutur. Qeyd edək ki, 2023-cü maliyyə ili üzrə ölkənin müdafiə büdcəsi layihəsinə ermənipərəst demokrat konqresmenlərdən Robert Menendes və Aleks Padila tərəfindən iki, Ceki Şpeyer, Frenk Pellon, Adam Şiff və Toni Kardenas tərəfindən isə 5 düzəliş təklif olunmuşdu. Onlardan 682 və 724 saylı düzəlişlər ABŞ-ın Azərbaycana yardımlarına qadağa qoyulmasını özündə ehtiva edirdi.

Kaliforniyadan olan konqresmen-demokrat Adam Şiff ABŞ Konqresindəki erməni maraqlarının ən qızğın lobbiçilərindən biridir, Azərbaycanı tənqid edən, Azərbaycan və Türkiyəyə qarşı hər cür "dinləmələrin" təşkilatçısıdır. Bunun sübutu onun siyasi fəaliyyəti və ictimai açıqlamaları kimi xidmət edə bilər. Uzun illər davam edən ermənipərəst fəaliyyətinin daimi xətlərindən biri ABŞ-ın ali hakimiyyətini Azərbaycana və Ermənistana hərbi yardım siyasətini yenidən nəzərdən keçirməyə məcbur etmək cəhdidir. Adam Şiff, Konqresdə siyasi karyerası biabırçı şəkildə ləkələnmiş erməni maraqlarının yeganə lobbiçisi deyil. Bunların arasında Nyu Cersidən olan demokrat senator Bob Menendes də var.



**Azərbaycan Demokratik İslahatlar Partiyasının (ADİP) sədri, deputat Asim Mollazadə "Yeni Müsavat"a bildirdi ki Adam Şiffi yaxşı tanıyırıq:** "Onun bütün fəaliyyəti siyasi korrupsiyadır və erməni diasporuna xidmət edir. O, ABŞ-ın milli maraqlarına, milli təhlükəsizlik maraqlarına ziddir. Onun çağırışları erməni diasporunu məmnun etməyə hesablanıb. Ona görə bu cür məktubların heç bir nəticəsi olmayacaq. Adam Şiff və onun kimi erməni diasporuna bağlı konqresmenlər çoxdan özlərini ifşa ediblər".

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə isə bu çağırışların təsirli olacağına inanmadığını qeyd etdi:** "Erməni lobbisinin verdiyi payın qarşılığında bu xidməti yerinə yetirirlər. Az qala erməniləri "Qırmızı kitab"a salıb nəsli kəsilməkdə olan toplum kimi təqdim etsinlər. Adam Şiff kimi ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə fəaliyyəti heç zaman nəticə verməyəcək. Adam Şiff kordur və görmür ki, 30 il ərzində Qarabağda bizə aid abidələr, məscidlər, mədəniyyət nümunələri necə dağıdılıb? Sadəcə, Adam Şiff seçkidə səs almaq məqsədi güdür və erməni lobbisinin pulu əvəzində xidmət göstərir".

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli isə vurğuladı ki, bu çirkin kampaniya hələ bir müddət də aparılacaq:** "Onlar belə beynəlxalq ictimai rəy yaratmaq istəyirlər ki, guya Azərbaycan Qarabağda yaşayan mülki əhaliyə qarşı aqressiv vasitələrdən istifadə edib, ermənilər də qaçmağa məcbur qalıb və indi onların irsinin nəsli kəsilməkdədir. Sözsüz ki, erməni təssübkeşliyi xristian dünyasında var və bəzi dairələrə bu məktublar, çağırışlar təsir göstərə bilir. Amma ümumilikdə həqiqət göz qabağındadır. Qarabağda ermənilərin nə ev-eşiyi dağıdılıb, nə onlara aid kilsələr zədələnib, öz xoşları ilə bölgəni tərk ediblər. Adam Şiff kimi erməni lobbisinin əlinə baxanlar 67 məscidimizin 65-nin dağıdılmasını görməzdən gəlirlər. Blinkenə gedən bu məktubla bağlı biz də Dövlət Departamentinə rəsmi etiraz məktubu göndərməliyik. Ümumiyyətlə, Azərbaycan diplomatik masada işini sürətləndirməlidir və daha çox iş görməliyik. Bu gün erməni lobbisi aktivdir, biz tamaşaçı qala bilmərik. Odur ki, diplomatiyanın əks-hücum taktikasından istifadə etməliyik".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# İran bu gün yeni prezidentini seçir

## Namizədlərdən biri son anda geri çəkildi; azərbaycanlılar 100 il sonra hakimiyyətə gələ bilər

**Bu gün İranda prezident seçkisidir. İranda prezident seçkisi yerli vaxtla 08:00-da başlanacaq.**

İranda prezidentliyə 6 namizəddən 1-i, parlament sədrinin keçmiş müavini Seyid Əmir Hüseyin Qazizadə Haşimi seçkilərdən geri çəkildiyini bəyan edib.

Haşimi X-dakı səhifəsində namizədliyini geri götürdüyünü yazıb.

"İnqilab qüvvələrinin birliyini qorumaq üçün və İslam İnqilabı Qüvvələrinin Koalisiya Şurasının (İranda mühafizəkar partiyalar koalisiyası), eləcə də bəzi üləma və rəğbətli şəxslərin tələbinə cavab olaraq, namizədlikdən imtina etdim. Ümid edirəm ki, digər üç qardaşım fürsətdən istifadə edərək hərəkat inqilabını birləşdirib gücləndirəcəklər".

Qazizadə Haşiminin sözlərinə görə, indi onun vəzifəsi



"ölkənin maraqlarını qorumaqdır".

Beləliklə, bu gün keçiriləcək seçkidə 5 namizəd qalıb:

Mustafa Purməhəmmədi - prokuror və keçmiş ədliyyə naziri;

Məsud Pezeşkian - parlamentin deputatı, keçmiş səhiyyə naziri;

Əlirza Zakani - Tehran meri;

Səid Cəlili - İran ali rəhbərinin Təhlükəsizlik Şurasındakı nümayəndəsi;

Məhəmməd Baqir Qalibaf - parlamentin hazırkı sədri;

Agentliklərin apardığı sorğulara əsasən, Pezeşkiyan 24,4 faizlə birinci olub. Mühafizəkar Səid Celili isə 24 faizlə ikinci yerdədir. Əvvəlki bir sorğularda ön sıralarda olan Məhəmməd Bağır Qalibaf 14,7 faizlə üçüncü olub.

İran prezidentliyinə namizəd Məsud Pezeşkianın reytinq cədvəlində önə keçməsi hakimiyyəti, mühafizəkar siyasi cərəyan və fars milliyyətçiləri ilə yanaşı Tehran rejiminə müxalifətdə olanları da narahat edib. Bununla bağlı Tehrana müxalif təşkilatların mətbu orqanlarında materiallar dərc olunur. (Axar.az)

Belə ki, İran Xalq Mücahidləri Təşkilatı və ölkədə şahlıq üsul-idarəsinin bərpasını tələb edən təşkilatlar digər namizədlərdən fərqli olaraq, repressiyalarda əli olmayan türk namizədə qarşı geniş təbliğat kampaniyası başladıb. Xüsusən iyunun 26-sı axşam saatlarında Məsud Pezeşkianın Təbrizə gəlməsi, azərbaycanlıların onu türkcə şüarlarla qarşılamasından sonra bu antitəbliğat kampaniyaları daha da genişlənib. Onlar Keşikçilər Şurasının (Konstitusiyaya Nəzarət Şurası) Məsud Pezeşkianın namizədliyini təsdiq etməsini səhv adlandıraraq, burada qaranlıq məqamların olduğunu bildiriblər.

Həmin təşkilat və siyasi qruplaşmaların bir neçəsi birbaşa və dolayı yolla Məsud Pezeşkianın qələbəsinin qarşısını almaq üçün namizədlərin bir namizədin xeyrinə geri çəkilməsini təklif ediblər. Qeyd olunan siyasi cərəyanlar və hakimiyyətə bağlı bir sıra media orqanlarında "100 illik fasilədən sonra türklər hakimiyyətə qayıda bilər!" məzmunlu xəbərdarlıq mahiyyətli materiallar paylaşıblar.

Tehran rejiminə müxalifətdə olan həmin siyasi qruplaşmalarla hakimiyyətin radikal mühafizəkar qanadının mövqeyi üst-üstə düşdüyü üçün İran mediası da az dəyişikliklə qeyd olunan tələbləri əks etdirir.

Bəzi müstəqil və tərəfsiz siyasi ekspertlər bunu "üç fərqli qütbün türklərə qarşı məcburi birliyi" kimi dəyərləndirirlər.

Qeyd edək ki, 1925-ci ildə ingilislərin dəstəyi ilə Əhməd şah Qacarı devirərək, hakimiyyətə gələn Pəhləvi fars millətçiliyini dövlətin əsas siyasətinə çevirmişdir.

Xatırladaq ki, İbrahim Rəisinin olduğu helikopterin qəzaya uğraması nəticəsində azı 8 nəfər həyatını itirib. Helikopterin göyərtəsində onunla yanaşı, xarici işlər naziri Hüseyin Əmir Abdullahiyan, Şərqi Azərbaycan əyalətinin qubernatoru Malik Rahmati və Təbriz şəhərinin cümə imamı Məhəmməd Ali əl-Haşim və İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Mehdi Musəvi də olub.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Konstitusiya Məhkəməsi qərarını verdi - seçkilərin tarixi...

## Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentin sorğusuna baxılaraq məqsədəuyğun hesab edilib; **hüquqşünas:** "Prezident seçkilərin keçiriləcəyi tarixi bu gün də, 10 gün sonra da elan edə bilər"

**İyunun 27-də Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxıb.**

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev iclası açaraq Plenumun tərkibini elan edib və müzakirəyə çıxarılan məsələ barədə məlumat verib.

İclasda sorğuverən tərəfin nümayəndələri qismində Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquq siyasəti məsələləri sektorunun müdiri Rüstəm Qasımov və həmin şöbənin Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladov, cavabverən tərəfin nümayəndəsi Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev və ekspert qismində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov iştirak ediblər.



Çıxışlardan sonra Konstitusiya Məhkəməsi Plenumunun üzvləri gündəlikdəki məsələ ilə bağlı qərar qəbul etmək üçün müşavirə otağına keçiblər.

Daha sonra müşavirədən qayıdan Konstitusiya Məhkəməsi Plenumunun üzvləri Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsinin konstitusiyaya uyğunluğu barədə qərar qəbul ediblər.

Qərarda deyilir ki, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarı və bu Qərar əsasında Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 98.1-ci maddəsinə uyğun hesab edilməlidir.

Qəbul edilmiş qərar elan olunduğu andan qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz. Bununla da Konstitusiya Məhkəməsi Plenumunun iclası bağlı elan edilib.

Yada salaq ki, ötən həftə hakim partiya parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsini təklif edib. Seçkilər noyabrda olmalıdır, lakin həmin ay COP29 tədbirləri təşkil olunacağı üçün iqtidar partiyası təşəbbüs göstərib ki, iki ay irəli çəkilərək növbədənkənar parlament seçkiləri keçirilsin. Çünki eyni aya təsadüf etməsi həm seçkinin, həm tədbirlərin yüksək səviyyədə təşkilində çətinlik yarada bilər. Artıq Konstitusiya Məhkəməsi də Prezidentin sorğusuna müsbət rəy verib və indi seçkilərin nə zaman keçiriləcəyi tarixi açıqlamaq qalır.

Xatırladaq ki, 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumla Prezidentə Milli Məclisi buraxmaq səlahiyyəti verilib. Həmin referendumda konstitusiyaya edilmiş dəyişikliyə görə, növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti 5 ildən az ola bilər. 2019-cu il noyabrın 28-də Prezident İlham Əliyevin sədrlik etdiyi, parlamentdə ən çox deputatla təmsil olunan Yeni Azərbaycan Partiyası Milli Məclisin buraxılması təşəbbüsünü qaldırıb. Dekabrın 2-də Milli Məclis parlamentin buraxılması, növbədənkənar seçkinin təyin olunması üçün prezidentə müraciət edib. Dekabrın 4-də Konstitusiya Məhkəməsi prezidentin sorğusuna baxaraq növbədənkənar parlament seçkisinə "yaşıl işıq" yandırıb. Dekabrın 5-də prezident Milli Məclisi buraxıb və 2020-ci il fevralın 9-na növbədənkənar parlament seçkisi təyin edib.

Milli Məclisin buraxılması halında parlament seçkisi 60 gün ərzində keçirilməlidir. Konstitusiyaya görə, 18 yaşına çatmış ölkə vətəndaşı Milli Məclisin deputatı seçilə bilər. İkili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul şəxslərin, din xadimlərinin, fəaliyyət qabiliyyətsizliyi məhkəmədə təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin deputat seçilməsi yasaqdır.

Deputatlığa namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, müvafiq seçki dairəsində daimi yaşayan, seçki hüququ olan vətəndaşlar irəli sürə bilər. Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır. Bir seçicinin birdən artıq namizədin müdafiəsi üçün imza atması mümkündür. Seçki dairəsi üzrə heç bir namizəd qeydə alınmayıbsa və ya bir namizəd qeydə alınıbsa, müvafiq seçki dairəsi üzrə seçki 2 ay müddətinə təxirə salınır. Səsvermə gününədək seçki dairəsində qeydə alınmış namizəd qalmazsa, yaxud qeydə alınmış bir namizəd qalarsa, seçki birmandatlı seçki dairəsində ən geci 3 ay müddətinə təxirə düşür. Seçkidə iştirak edən seçicilərin ən çox səsini toplamış namizəd birmandatlı seçki dairəsi üzrə deputat seçilmiş sayılır. Qeydə alınmış namizədlərin lehinə verilən səslərin sayı bərabər olduqda birmandatlı seçki dairəsi üzrə seçki baş tutmamış hesab edilir. Seçkinin yekunlarını Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir. Dövlət müstəqilliyi 1991-ci ildə bərpa olunan Azərbaycanda 6 parlament seçkisi keçirilib. 1995-ci ilin seçkisi noyabrın ikinci bazar gününə, 2000, 2005, 2010 və 2015-ci illərin seçkiləri noyabrın birinci bazar gününə düşüb.

**Hüquqşünas, sabiq millət vəkili Qulamhüseyn Əlibəylinin "Yeni Müsavat"a bildirdiyinə görə, Konstitusiya Məhkəməsi qərarını açıqladıqdan sonra Prezident növbədənkənar seçkilərin keçirilməsinin vaxtını elan etməlidir. Onun sözlərinə görə, seçkilərə iki ay qalmış tarix elan olunur:** "Yeni Prezident seçkilərin keçiriləcəyi tarixi günü sabah da, 10 gün sonra da elan edə bilər. Sonra Mərkəzi Seçki Komissiyası elan edilən zamanı nəzərə alaraq, seçki hərəkətlərinin hansı vaxtlarda, hansı ardıcıllıqla həyata keçiriləcəyinə dair qrafikini müəyyən etməlidir". Q.Əlibəyli bildirdi ki, bunun davamı olaraq deputat olmaq istəyənlər namizədliyini açıqlayır, sonra 5 gün müddətində onlara vəsiqə verilir, verilən zaman müddətində 450-500 imza toplanır, sonra Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Ondan sonra namizədlərin qeydiyyatı başlanır. Nəhayət, bu proses də yekunlaşdıqdan sonra 21 günlük təbliğat-təşviqat kampaniyasına start verilir".

**Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**



## "Çalışacaqlar ki, biz parlamentə düşməyək"

### Qüdrət Həsənquliyevdən ilginc açıqlama

**Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri, millət vəkili Qüdrət Həsənquliyev mediaya son açıqlamasında maraqlı məqamlara toxunub. O, Milli Məclisə gözlənilən seçkilərdən danışıb.**

Xalqcebhesi.az xəbər verir ki, deputat bu seçkilərin Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra ilk olduğunu xatırladıb: "Ona görə çox əlamətdardır. Seçkilərdə heç bir müxalifət partiyasının qalib gəlmək şansı yoxdur. Çalışacağıq ki, parlamentdə yerlərimizin sayını artıraq. Parlamentdə müxalifət fraksiyasının yaranması üçün başqa partiyalarla danışıqlar aparacağıq. Ümid edirəm, xalqımız partiyamızın və deputat kimi mənim fəaliyyətimi qiymətləndirəcək və yenidən etimad göstərəcək".

**Q.Həsənquliyev bəzi narahatlığını ifadə edib:** "Amma onun da fərqindəyəm ki, yüksək çinli və təkəbbürlü məmurlar seçkilərin gedişinə və nəticələrinə təsir göstərməyə çalışacaqlar ki, biz Milli Məclisə düşməyək. Çünki həm xaricdə, həm daxildə bizim fəaliyyətimizdən narazı güclü dairələr var. Biz şəxsi maraqlarımıza uyğun olmasa da milli mənafelər naminə ölkənin inkişafını ləngidən "tabu" sayılacaq problemlərdən, onların həlli yollarından danışmışıq. İstəmişik ki, vətəndaşlarımız siyasi baxımdan yetkin olsunlar. Bilirik ki, daxildə bəzi məmurlar tənqiddən nəticə çıxarıb işlərini daha yaxşı qurmaq əvəzinə, ondan narahatdırlar ki, Prezident onların peşəkarlığına və dürüstlüyünə şübhə ilə yanaşa bilər".

Deputat bildirib ki, Milli Məclisdə konstruktiv müxalifətin, ciddi məsələlərlə bağlı alternativ ideyaların və tənqidi fikrin olmaması çox üzücü olardı.

"Bizdən daha çox iqtidarın və dövlətimizin böyük uğursuzluğu sayılardı", - Həsənquliyev bildirib.

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Separatçıların məhkəməsi canlı yayımlana bilər(mi)

**Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun separatçı rəhbərlərinin yaxın vaxtlarda məhkəməsinin başlayacağı xəbəri ölkənin əsas müzakirə mövzularından biridir.**

Yada salaq ki, baş prokuror Kamran Əliyev bildirib ki, artıq 15 nəfərlə bağlı istintaq hərəkətləri başa çatıb: "Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmiş şəxslər cinayət işi materialları ilə tanış olurlar. Tanış olma mərhələsi başa çatandan sonra ittiham aktı məhkəməyə göndəriləcək".

Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" Davit Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və digərləri müharibə cinayətlərində ittiham olunurlar. Azərbaycanın hüquq-mühafizə orqanları və istintaqçıları erməni separatçılarının ötən 30 il ərzində xalqımıza qarşı törətmiş olduğu hərbi cinayətləri detalları ilə araşdırıb. Azərbaycanlılara qarşı soyqırımında, doğma yurd-yuvalarından qovulmasında, əmlaklarının talan edilməsində və s. kimi cinayətlərdə iştirak ediblər.

İbtidai istintaqın materialları ilə həmin şəxslərin, həm onlarının müdafiəçilərinin, prosessual qanunvericiliklə nəzərdə tutulmuş digər şəxslərin cinayət işi ilə tanış olması mərhələsi başlayıb. Separatçı cinayətkarların məhkəməsinin ictimaiyyətə açıq keçirilməsi məsələsi gündəmə gəlib. Çoxluq canilərə açıq məhkəmə keçirilməsinin, onların hər kəsin gözü qarşısında mühakimə edilməsinin tərəfindədir. Dünyada bu təcrübənin olduğunu əsas gətirən ictimaiyyət hesab edir ki, separatçı canilər də bu şəkildə mühakimə olunmalıdır.

Qeyd edək ki, 2009-cu ilin oktyabrında Haaqa məhkəməsində mühakimə olunan Radovan Karaciçin məhkəməsi canlı yayımlanmışdı. Bosniya serblərinin keçmiş lideri Radovan Karaciç də Bakıda həbsdə olan separatçı liderlər kimi hərbi cinayətlərdə ittiham olunurdu. Ekspertlərə görə, prosesin açıq, yaxud qapalı keçirilməsi ilə bağlı məsələ daha çox həmin məhkəməyə sədrlik edənin qərarından asılı olacaq.

Separatçıların məhkəməsinin açıq keçirilməsi gözləniləndimi? Məhkəmə canlı yayımlana bilərmi?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Hüquq müdafiəçisi separatçıların məhkəməsinin canlı yayımlanmasının tərəfdarı olduğunu deyib: "Canlı yayımlansa, daha yaxşı olar, yəni televiziya vasitəsilə hamı izləyə bilər. Amma ola bilər ki, məhkəmədə hansısa dövlət əhəmiyyətli sirlər deyilsin, buna görə də qapalı keçirilməsi haqda da qərar verilə bilər. Yəni məhkəmənin qapalı, yoxsa açıq keçiriləcəyini əvvəlcədən demək mümkün deyil. Məsələ işin, ittihamın mahiyyətindən və ifadələrdən asılıdır. Həmin separatçılar Azərbaycan xalqının hər biri üçün potensial cinayətkardır. Onlar xalqımıza, dövlətimizə qarşı böyük cinayətlər törədiblər. Yəni onların törətdikləri fərdi cinayət, kiminsə davası deyil, xalqımıza qarşı apardıqları iyrənc müharibənin, separatizmin tərkib hissələrdir. Bu baxımdan canlı yayım vasitəsi ilə olsa çox yaxşı olardı. Hesab edirəm ki, əgər açıq məhkəmə olacaqsa, bunun üçün böyük məhkəmə zallarına ehtiyac olacaq. Çünki bütün mətbuat, media kollektivi, jurnalistlər orada olacaq. Hazırda mövcud məhkəmə zallarında bunu təşkil etmək qeyri-mümkündür. Bu baxımdan məhkəmə açıq keçirilərsə, böyük zallara ehtiyac olacaq. Hər halda, rəsmi qurumlar bu məsələni həll edəcəklər. Ən əsası odur ki, onlar həbsdədir və layiqli cəzalarını alacaqlar".

## Vəkil: "Proses yalnız o zaman qapalı keçirilə bilər ki... "

**Hüquqşünas Əsabəli Mustafayev də o fikirdədir ki, indidən separatçıların məhkəməsinin açıq, yoxsa qapalı keçiriləcəyini demək çətindir:** "Amma hesab edirəm ki, məhkəmənin qapalı keçirilməsinə ehtiyac yoxdur. Üstəlik, bu məhkəmə həm daxili, həm də xarici ictimaiyyətə açıq olarsa, daha yaxşı olar. Çünki məhkəmənin açıq keçirilməsi araşdırma hüququnun, konvensiyada tətbiq olunmuş 6-cı maddənin bir hissəsidir. Biz gərək bəhanə verməyək ki, gələcəkdə bunlar şikayət etsin ki, məhkəmə qapalı keçirilib, ona görə də ədalətli qərar verilməyib və sairə. Bütün beynəlxalq aləm bunu görməlidir ki, proses şəffaf keçirilir, müdafiə hüququ təmin olunur, təqsirləndirilən şəxslərə öz fikirlərini səsləndirmək, mövqelərini müdafiə etməsi üçün bütün şərait yaradılıb. Üstəlik, onların deyəcəkləri elə bir sirr də qalmayıb, hər şey məlumdur. Həmçinin inanmıram ki, beynəlxalq aləmdə onların hər hansı müdafiəsi üçün səylər olsun, çünki separatizm bütün dünyada pislənilir.

Məhkəmə o halda müəyyən hissələrdə qapalı keçirilə bilər ki, orada Azərbaycanın hansısa hərbi sirrindən söz açılır. Məsələn, orada hansı texnikadan istifadə olunub, necə istifadə olunub, hansı hərbi hissələr iştirak edib, konkret olaraq komandirlərin ad-soyadları hallanır. Bu zaman əvvəlcədən elan etməklə məhkəmənin müəyyən hissələrində qapalılığı təmin etmək olar.



Lakin bütövlükdə məhkəmə mütləq açıq şəkildə keçirilməlidir. Çünki ittiham olunanlar separatçı qurumun siyasi rəhbərliyində olublar, Ermənistanın siyasi elitası ilə əlaqələri olub və hətta indi də uzaqdan-uzağa da olsa münasibətləri var. Ona görə də beynəlxalq təşkilatlar onları siyasi dustaq siyahısına salmasın deyə məhkəmə açıq keçirilməlidir. Lazım gəlsə, beynəlxalq təşkilatlardan kimsə monitorinq aparmaq istəsə, dəvət olunsunlar. Azərbaycan həm hüquqi, həm də siyasi cəhətdən çox güclüdür. Heç nədən çəkinmədiyimizi, hər şeyin şəffaf və ədalətli keçirildiyini, hüquqi və siyasi cəhətdən güclü olduğumuzu bütün beynəlxalq aləmə nümayiş etdirməliyik".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



## Şahramanyan Azərbaycana təhvil verilə bilər?

**Samvel Şahramanyan özünü Ermənistanda müstəqil subyekt kimi aparmağa başlayıb". Bu sözləri Azad Vətən Partiyasının (AzVP) sədri Akif Nağı Cebhe.info-ya açıqlamasında deyib. O bildirib ki, Şahramanyan vaxtında tamam başqa mövqe sərgiləyirdi:**

"Hətta 2023-cü ilin sentyabr ayında tam şəkildə Azərbaycanın qanunlarına tabe olacağını bildirirdi. Üstəlik, 1 yanvar 2024-cü ildən qondarma rejimin tamamilə ləğv olunacağını da bəyan etmişdi. Amma sonradan verdiyi sözləri tutmadı və yenidən Azərbaycana qarşı müəyyən mövqedən çıxış etməyə başladı. Təbii ki, bu da Şahramanyanın özünün müstəqil mövqeyi deyil".

Partiya sədri qeyd edib ki, Samvel Şahramanyan kimlərinsə sifarişini yerinə yetirir: "Ona Ermənistanın daxilindən və xaricindən sifarişlər verilir. Bəzi xarici qüvvələr Ermənistanda özlərini "Qarabağ erməniləri" adlandıran kontingentdən istifadə etməyə çalışırlar. Şahramanyan da bu tələyə düşür və oynamağa çalışır. Bəzən də həddi keçəndə Nikol Paşinyan hakimiyyəti ona qarşı müəyyən addımlar atmağa məcbur qalır".

**Akif Nağı hesab edir ki, Şahramanyan Paşinyan hakimiyyətinə qarşı Ermənistanın daxilindəki müəyyən qüvvələrin əlində alət olsa, həbs edilə bilər:** "Hətta Samvel Şahramanyan Azərbaycana təhvil verilə bilər. Yəni onu da özündən əvvəlki separatçıların aqibətinin gözləməsi mümkündür. Hesab edirəm ki, əvvəl-axır Azərbaycan Samvel Şahramanyanı da həbs edəcək. Ancaq Şahramanyan Paşinyanın planına uyğun hərəkət etsə, Azərbaycana təhvil verilməyə bilər. Rəsmi Bakı ona zamanında güzəşt etdi. Lakin Şahramanyan ölkəmizin bu xoş mövqeyinə qarşı fərqli addım ataraq, Azərbaycana qarşı təbliğat kampaniyasına başladı. Buna baxmayaraq, Paşinyan hakimiyyətinin istəyib-istəməmsindən asılı olmayaraq, Samvel Şahramanyan, Seyran Ohanyan, Samvel Babayan, Vitali Balasanyan, Robert Köçəryan və Serj Sərkisyan Azərbaycan məhkəməsi qarşısında cavab verəcəklər".



Ararat Mirzoyan

## İrəvanın yenə sülh sazişi vədi

**İrəvan bir ay ərzində Bakı ilə sülh sazişinin yekun mətnini imzalamağa hazırdır. Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib. O qeyd edib ki, ölkəsi Azərbaycandan müsbət cavab gözləyir.**

"Ermənistan Azərbaycanla sülh sazişinin yekun mətnini bir ay ərzində yekunlaşdırmağa və onu imzalamağa hazırdır, lakin Bakıdan müsbət cavab gözləyir", - Ararat Mirzoyan Tallindəki mətbuat konfransında deyib.

XİN başçısı Türkiyə ilə sərhədlərin açılmasından danışıb. "Türkiyə ilə diplomatik əlaqələr qurmağın, üçüncü ölkələrin vətəndaşları və diplomatik pasportu olan şəxslər üçün ortaq sərhədin açılmasının vaxtıdır", - o qeyd edib.



# Uçan boşqablar sosiologiyası

Zamin HACI
zaminhaci@gmail.com

**Sosial Tədqiqatlar Mərkəzində sosial elmlərin vəziyyəti ilə bağlı yığıncaq olub, mərkəzin sədri, deputat Zahid Oruc deyib: "Ölkəmizdə sosiologiya indeksi üzrə alimlər çox azdır. Ən tanınmış elm adamımızın 85 yaşı var. Orta nəsli barmaqla saymaq olar. Geri qalmış sahələrdən biri də sosiologiyadır və heç vaxt diqqət mərkəzində olmayıb."**

Doğru deyirmi? Mən bilmirəm. Çünki azərbaycanlı sosioloqların rəyləri qabağıma çıxanda adətən oxumuram. Niyə oxuyum ki? Onlar cəmiyyətdən uzaq adamlardır.

Bax, problemin kökü əslində elə buradadır: cəmiyyətdən uzaq düşmək. Sosiologiya - adından göründüyü kimi, cəmiyyəti öyrənmək elmidir. Bəs bu elmə bizdə sifariş varmı? Yoxdur. Azərbaycan Respublikası əksər türk-müsəlman dövlətləri kimi cəmiyyətin, vətəndaşın yox, dövlətin, hökumətin tərəqqisinə xidmət edən siyasi quruluşa malikdir. Türkiyədə çox populyar olan ifadə ilə yazsam, "bizdə dövlət cəmiyyət üçün deyil, cəmiyyət dövlət üçündür".

Ona görə bizdə sosiologiya yox, nisbətən politologiya üstün elm sayılır. Ekranda, qəzet səhifələrində qabağına 1 sosioloq rəyi çıxanda, yanında 10 politoloq görürsən. Əlbəttə, onlar nə danışır, sözlərinin bir qara qəpiklik əhəmiyyəti varmı, yoxmu, heç bunu müzakirə etmək istəmirəm. Mən sadəcə kəmiyyəti, orta statistik vəziyyəti təsvir edirəm.

Sovet dövründə bizdə sorğu mərkəzləri ola bilməzdi, bunu anlayırıq, müstəqillik illərində, 1990-larda bəzi müstəqil sosial araşdırma qurumları yaranırdı. Onların rəylərinə hörmətlə yanaşmaq mümkün idi. Məsələn, mənim indi yadıma "Adam" sosial sorğu mərkəzi gəlir. İndi haradadır? Yoxdur. Necə deyərlər, dövlətimiz tərəfindən ləğv edilmişdir. Bundan başqa "FAR-sentre" mərkəzinin, Turan İnformasiya Agentliyinin, ümumiyyətlə əksər media qurumlarının sosial sorğuları, araşdırmaları olardı.

Sosiologiyanın yoxa çıxması, cəmiyyətin yoxa çıxması ilə qarşılıqlı bağlıdır. Bizdə indi cəmiyyət varmı? Hansısa məsələni toplaşıb, öz aramızda müzakirə edib nəsə ortaq məxrəcə gəlirikmi? QHT sektoru, media, siyasi partiyalar əslində cəmiyyətin dayaqları, üstündə durduğu sütunlardır. Bunların imkanları zəiflədikcə, cəmiyyət də ölgünləşir, amorf, yayğın, simasız kütləyə çevrilir.

Misal üçün, öz yaşadığınız məhəlləni, küçəni, kəndi, qəsəbəni, şəhəri göz önünə gətirin. Son 20 ildə bu yerlərdə aparılan hansısa işlə bağlı sizdən rəy soruşan, fikir öyrənən olubmu? Olmayıb. Buna yüz faiz əminəm. Hökumət harda körpü sökülməlidir, hansı küçədə hansı heykəltəraşa abidə qoyulmalıdır, o cümlədən küçəyə kimin adı verilməlidir və sairə - bunların hamısını yerli sakinlərdən soruşmadan, sorğu aparmadan özü edir.

Nəticədə absurd durumlar yaranır. Bu yaxında Bakıətrafı qəsəbələrin birindən şəhərə gəlməliydim. Dayandığım küçənin adı Qara Qarayev idi. Avtobus şəhərə çatanda oradakı prospektin də adı Qara Qarayev idi. Üstəlik, metro da həmin adda. Qardaşım, bu ölkədə Qara Qarayevdən başqa kimsə yoxdurmu? Təbii ki, o yerlərdə sorğular aparılsa, camaatın rəyi öyrənilsə, tarix, yerin keçmişi nəzərə alınsa belə mənzərələr ortaya çıxmaz. Günümüz də qara olmaz.

Adını çəkmirəm, çünki ölüb, mənim yaşadığım ərazidən 30 ildir bir nəfər deputat olurdu. Yoldaş bütün deputatlığı ərzində cəmi 1 dəfə söz almışdı, onda da "İşverənlər haqda qanun"un adına etiraz eləmişdi: "Oqtay müəllim, işverən pis səslənir, bəlkə bunu dəyişək?" Bəlkə dünyada yeganə deputat idi ki, heç vaxt təbliğat lövhəsinə şəklini yapışdırmır, seçicilərlə görüş keçirmirdi, lakin həmişə qutudan özü çıxırdı. Belə bir şəraitdə sosiologiyanın vacibliyinə kimi inandırmaq olar?

Əhalinin rəyi temasında bir lətifə ilə - Molla Nəsrəddinin fildən şikayət üçün kəndlilərinə qoşulub rəhbərliyin qəbuluna getməsi əhvalatı - yazını bitirmək olardı, ancaq o lətifə də guya indi kimə lazımdır?

Bizdə cəmiyyət olmadığı üçün onu öyrənən elm də yoxdur. Daha doğrusu, fərz edilir. Uzaylılar kimi, məsələn.



# O'Brayenin Bakıya "ikibaşlı" səfəri

## Sülh sazişinə görə gəlir, yoxsa "Azərbaycanın insan hüquqları üzrə beynəlxalq öhdəliklərinə sadiq qalmasını" sorğulamağa?

**ABŞ-ın Avropa və Avrasiya üzrə baş diplomatı Ceyms O'Brayen ikitərəfli münasibətlərin möhkəmləndirilməsini müzakirə etmək və Vaşinqtonun sülh prosesinə sadiqliyini vurğulamaq üçün Azərbaycana gəlir.**

"Turan"ın Vaşinqton müxbiri Dövlət Departamentinə istinadən xəbər verib ki, dövlət katibinin köməkçisi Ceyms O'Brayen Bakıda "ABŞ-Azərbaycan ikitərəfli münasibətlərində irəliləyiş və ABŞ-ın Ermənistan və Azərbaycan arasında sülh sazişinə dəstəyini vurğulamaq" üçün Azərbaycanın yüksək vəzifəli hökumət rəsmiləri, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramovla görüşəcək.

O, həmçinin Azərbaycanın insan hüquqları üzrə beynəlxalq öhdəliklərinə sadiq qalmasının vacibliyini bir daha bəyan etmək üçün vətəndaş cəmiyyəti üzvləri ilə görüşəcək.

O'Brayen bu yaxınlarda İrəvan səfərindən qayıdıb və burada Ermənistanla strateji dialoqa rəhbərlik edib və ölkə liderləri və vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşüb.

O'Brayen Azərbaycana münasibətdə birmənalı mövqeyi olmayan ABŞ məmurlarındandır, bir müddət əvvəlki açıqlamaları ilə iki ölkə arasında münasibətlərdə gərginlik də yaratmışdı. Əslində ABŞ Dövlət Departamentində sülh prosesini izləyən Qafqaz üzrə müşaviri var və o da bugünlərdə Bakıda olmuşdu. ABŞ rəsmisinin vətəndaş cəmiyyətinin üzvlərini qəbul etməsi də diqqət çəkir. Çünki adətən bu adamlar xüsusi seçilir və heç də obyektiv mövqe sərgiləmirlər.

**Sabiq maliyyə naziri, iqtisadi və siyasi məsələlər üzrə ekspert Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, ABŞ dünyada özünün iqtisadi və hərbi hegemonluğunu qoruyub saxlamaq üçün Avrasiya məkanında kiminsə ondan önə keçməsinə imkan verməməlidir. Bu, Birləşmiş Ştatların uzun müddətə hesablanmış xarici siyasətinin ana xəttidir. Ona görə də Birləşmiş Ştatlar Avrasiya regionunun bütün məkanlarında - Cənubi Qafqazda, Ukraynada, Rusiyada, Orta Asiyada öz mövqeyini qoruyub saxlamaq və möhkəmləndirmək uğrunda mübarizə edir. Rusiya-Ukrayna müharibəsinin də kökündə həmin maraqlar dayanır. Bu müharibədə nə Rusiya, nə də Ukrayna qalib gələ bilməz. Bu müharibədə hər iki tərəf sona qədər zəifləyib, sonda ABŞ-dan asılı vəziyyətə düşməlidir. Ukrayna onsuz da müharibə başlamazdan öncə ABŞ-ın təsirində olan bir dövlət idi. İndi isə Ukrayna tam olaraq ABŞ-dan asılı vəziyyətə düşmüş bir dövlətə çevrilib. ABŞ Ukraynanın əli ilə Rusiyanı da özündən asılı vəziyyətə salmaq siyasəti yeridir. Bu səbəbdən Rusiya-Ukrayna müharibəsinin tezliklə bitəcəyi haqqındakı fikirlər cəfəngiyyatdır. Bu, uzun illər ərzində davam edəcək, üzücü bir müharibə olacaqdır. Onun nə vaxt bitməsinə isə ABŞ qərar verəcək.

ABŞ-ın Cənubi Qafqaz siyasəti formaca başqa olsa da, mahiyyət etibarilə Rusiya-Ukrayna müharibəsinin hədəfləri ilə eynidir. Birləşmiş Ştatlar Ermənistanı öz tərəfinə çəkib, ermənilərin əli ilə Rusiyanı bu bölgədən uzaqlaşdırmaq, Azərbaycanla Gürcüstanı isə özünün təsir dairəsinə salmaq siyasətini aparır. Əgər ABŞ Cənubi Qafqaz üçün sərgilədiyi bu siyasəti "sülh" yolu ilə reallaşdıra bilməsə, o halda Ağ Ev bölgədə Rusiyaya qarşı yeni bir müharibənin başlamasına rəvac verəcək və bu yolla bölgədə öz planlarını reallaşdırmağa qalxacaqdır. Bütün bu söylədiklərimiz nə qədər qəribə səslənsə də reallıqdır. Çünki bu yol ABŞ-ın Avrasiya və onun ən maraqlı bölgəsi olan Cənubi Qafqaz üçün müəyyən etdiyi strategiyaya tam uyğun bir yoldur.

Dünyada öz hegemonluğunu qoruyub saxlamaq və daha da möhkəmləndirmək üçün Birləşmiş Ştatlara Avrasiya məkanında daha çox resurslara və daha çox kommunikasiyalara nəzarət etmək lazımdır. Şərqlə Qərbi birləşdirən ən qısa quru yolunun Cənubi Qafqazdan keçməsi isə, bu bölgəni böyük güclər üçün yetərincə maraqlı edir. Birləşmiş Ştatlar Zəngəzur dəhlizinə Rusiyanın nəzarət etməsi ilə barışmaq istəməyəcək. Rusiya, Türkiyə, İran və Azərbaycan isə ABŞ-ın bu dəhlizə nəzarəti ələ keçirməsinin əleyhinə çıxış edirlər. Bu səbəbdən bölgəmizdə vəziyyətin sabit olacağına heç bir təminat yoxdur. ABŞ rəsmilərinin tez-tez Azərbaycana və Ermənistana səfərləri də sülh müqaviləsi ətrafında çağırışlar da, hətta insan haqları kimi məsələlərin gündəmə gətirilməsi də eyni məqsədə xidmət edir. ABŞ bölgədə istəyinə nail olmaq üçün mümkün olan və olmayan bütün alətlərdən yararlanmağa çalışır".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev hesab edir ki, etimad və etibar məsələsini bərkitməyə xidmət edə bilər:** "Son bir neçə ayda ABŞ Dövlət Departamentinin müxtəlif səviyyəli məmurlarının Cənubi Qafqaza səfərləri intensiv hal alıb. Eyni zamanda səfərlər müddətində onların çıxışlarındakı ritorikalarda da dəyişiklik var. Yəni əvvəllər Departament təmsilçiləri İrəvandan yalnız bir tərəfin mənafeyini əks etdirən bəyanatlar səsləndirirdisə , hazırda hiss olunan odur ki, verilən bəyanatlara, ifadələrə daha diqqətli yanaşırlar. Çünki birtərəfli bəyanatlarla Azərbaycanı narazı saldıqlarını danışıqlar prosesində özlərinin etibarının itirəcəklərini görürdülər. O səbəbdən O'Braynın Bakı səfəri düşünürəm ki, etimad və etibar məsələsini bərkitməyə xidmət edə bilər. Seçki ərəfəsində Ağ Ev administrasiyası Cənubi Qafqazla bağlı problemləri həlli istiqamətində daha çox işlər görməyə, eyni zamanda Rusiya faktorunu daha da zəiflətməyə çalışacaqdır. Azərbaycanda O'Brayn keçirəcəyi görüşlərdə bu istiqamətdə təkliflərini yəqin ki, səsləndirəcək və yaxın zamanlarda sülh müqaviləsinin imzalanması istiqamətində danışıqlar aparacaqdır. Hazırda vəziyyət o situasiyaya keçib ki, bu məsələdə Ermənistana sonuna qədər etibar edilmir. Çünki Rusiya faktoru ilə bağlı rəsmi İrəvan hələ də ona təklif olunmuş yol xəritəsi üzrə getmir, yaxud getmək istəmir. Ona görə də, Azərbaycanla danışıqlar, sülh müqaviləsi şərtlərinin müzakirəsi, nəticədə bu yolda uğurlu bir nəticənin alınması ABŞ-a Rusiya məsələsində Ermənistana əlavə təzyiqlər imkanı verə bilər. Çünki hazırda Ermənistan bütün dünyaya Azərbaycanın müharibəyə hazırlaşdığı və bunun qaçılmaz olduğu barədə dezinformasiyalar yaymaqla məşğuldur. Bu hal isə tərəflər arasında hazırda sülh müzakirələrinə mane olur və rəsmi İrəvana Rusiya və Qərb arasında manevrlər etmək şəraiti yaradır. Bu isə Qərbi qane etmir. Bütün hallarda bu gün sülh müqaviləsinin imzalanması istiqamətində müsbət irəliləyişlərin olması Ermənistandan çox regionda nüfuzu baxımından ABŞ-a lazımdır. O səbəbdən hesab edirəm ki, O'Brayn əvvəllər dediklərinə, yaxud şəxsi düşüncəsinə baxmayaraq hazırda Azərbaycanla, regionda sülhün davamlı olması istiqamətində daha obyektiv mövqedə olmağa məcburdur".

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Türkiyə sülh sazişindən əvvəl sərhədi açacaq?

## İrəvandan Türkiyə ilə Azərbaycanın arasını vurmağa yönəlik ağılsız cəhd; Bakıdan reaksiyalar...




**Proseslərin gedişatından görünən budur ki, rəsmi İrəvan növbəti dəfə destruktiv mövqe sergiləməkdə daha çox maraqlıdır və sülhü pozmaqdan ötrü fürsət gəzir. Hər halda, Ermənistan rəhbərliyinə aid şəxslərin vaxtaşırı ziddiyyətli açıqlamaları buna şübhə yeri qoymur.**

Düzdür, Nikol Paşinyanın ardınca XİN başçısı Ararat Mirzoyan da Ermənistanın bir ay ərzində Azərbaycanla sülh sazişinin yekun mətnini hazırlayaraq imzalamağa hazır olduğunu iddia edib. Eyni zamanda Mirzoyan Türkiyə ilə sərhədlərin açılmasına da hazır olduqlarını vurğulayıb. Amma...

"Gələcəyi inşa edirik" adlı forumda Ermənistan Təhlükəsizlik Şurasının katibi Ermənistan-Türkiyə münasibətləri haqda danışıb. Qriqoryan deyib ki, İrəvan Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə proseslərinə ayrı və fərqli istiqamətlər kimi baxır. "Biz hər iki prosesi müxtəlif istiqamətlərdə görürük. Ermənistan-Azərbaycan, Ermənistan-Türkiyə münasibətləri var. Biz onların üzərində müxtəlif yollarla işləyirik. Bəli, bəzi əlaqə ola bilər. Ancaq bizim yanaşmamız belədir: iki mürəkkəb düstur həll etmək lazımdırsa və onları birləşdirsəniz, həll yolu tapmaq daha çətin olacaq. Buna görə də onları ayırmaq lazımdır. Bizim anlayışımız və yanaşmamız elədir ki, bizim iki fərqli istiqamətimiz var", - Qriqoryan bildirib. Təhlükəsizlik Şurasının katibi qeyd edib ki, Ermənistan diplomatik pasport sahibləri və üçüncü ölkə vətəndaşları üçün quru sərhədinin açılması ilə bağlı əldə edilmiş razılaşmanın həyata keçiriləcəyini gözləyir. O qeyd edib ki, Ermənistan irəli getmək üçün Türkiyədən hərəkət gözləyir. Qriqoryanın Türkiyənin sərhəd məsələsinin sülh prosesindən guya ayrı olduğunu iddia etməsi isə heç şübhəsiz Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salmaq cəhdidir. Halbuki Türkiyə sərhədlərin açılması haqda bəyanatlarında sülh sazişinin imzalanmasını da önə çəkib. O da mümkündür ki, sərhəd açılarsa belə, bu, həm də Azərbaycanın razılığı ilə baş tutacaq. Beləliklə, Ermənistan sülhü pozmaq yolunda daha bir məkrli plana əl atır - Türkiyə ilə Azərbaycanın arasını vurmağa yönəlik ağılsız cəhd edir. Neçə vaxtdır Marqara sərhəd-keçid məntəqəsini təmir edərək Ankaradan cavab gözləyən Ermənistan hələ də anlamaq istəmir ki, Bakı və Ankara sərhədlərin açılmasına ortaq qərar verəcəklər və bu məsələni ayrıca həll etmək mümkün deyil. Analitiklərin mövzu ilə bağlı maraqlı təhlillərini almışıq.

**Deputat, Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında əvvəlcə bəzi xatırlatmalar etdi**: "Unutmaq lazım deyil ki, Türkiyə-Ermənistan münasibətləri, o cümlədən sərhədlərin bağlanması, diplomatik münasibətlərin olmaması bilavasitə Qarabağla bağlı idi və bunu Türkiyə daim bəyan edib. Ermənistan beynəlxalq səviyyədə israrla qondarma "soyqırım" məsələsini gündəmdə saxlamağa çalışıb, Türkiyəyə qarşı hər zaman ərazi iddiasında olub. Bu gün dəyişən geosiyasi məsələlər çərçivəsində sülhün bərqərar olmasından danışmaq əvəzinə, yenə absurd bəyanatlar verən Ermənistan barışıqdan qaçmağa çalışır və hətta Türkiyə-Azərbaycan münasibətlərinə də xələl gətirməyə cəhd göstərir". **A.Nağıyev əmindir ki, bu mövqe daha çox Fransanın regionda apardığı siyasətin təzahürünə bənzəyir:** "Yenə də müstəqil daxili və xarici siyasəti heç vaxt olmayan Ermənistan diktələrlə, daha çox vasitə kimi istifadə olunan dövlət kimi görünür. Təbii ki, hər bir dövlətin öz xarici siyasəti var və burada dostluqdan çox ümumi maraqlar üstün götürülür, lakin Azərbaycan-Türkiyə münasibətləri bu məsələlərdə istisnadır. Qeyd edək ki, Ermənistan və Türkiyə xarici işlər nazirlərinin sonuncu görüşü bu il fevralın sonunda Antalyada baş tutub. Uzun müddətdir ki, rəsmi görüş olmayıb, lakin Ermənistan və Türkiyə nümayəndələri arasında yeni görüşün olacağı barədə razılıq var. Məlum olduğu kimi, Ermənistan və Türkiyə arasında quru sərhədi üçüncü ölkə vətəndaşları və diplomatik pasportlara malik şəxslər üçün açıq olmalıdır. Bu məsələ də hələ öz həllini tapmayıb. Türkiyənin xarici işlər naziri Hakan Fidan erməni həmkarı Ararat Mirzoyanla telefon danışığı aparıb. "Tərəflər ikitərəfli və regional məsələləri müzakirə ediblər", lakin "əvvəlki razılaşmaların icrasına" diqqəti artırıblar və buna paralel olaraq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı aparıb və onu 19 iyulda səfərə dəvət edib. Türkiyədə belə bir görüş baş tutacaqmı? Bu görüşün baş tutması Fransanın Ermənistana "Ceaser" artilleriya sistemləri satması ilə bağlı Azərbaycan Müdafiə Nazirliyinin kəskin bəyanatından sonra Ermənistan-Azərbaycan münasibətlərində yaranmış vəziyyəti yumşaltmaq cəhdi kimi dəyərləndirilə bilər..." **A.Nağıyev qeyd etdi ki, Ankara İrəvanla normallaşma prosesini İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanması, Zəngəzur dəhlizinin açılması ilə əlaqələndirir**: "Paşinyan buna mənfi reaksiya verir və hesab edir ki, bu məsələlər Ermənistan-Azərbaycan səlahiyyətlərinin müstəsna sahəsidir və Türkiyə-Ermənistan münasibətlərini Bakının iştirakı olmadan xüsusi formata keçirmək lazımdır. Təhlillər göstərir ki, bu məsələ iyulun əvvəlində Ərdoğanın Rusiya prezidenti Vladimir Putinlə Qazaxıstanda Şanxay Əməkdaşlıq Təşkilatının sammiti formatında görüşü zamanı da müzakirə olunacaq. Bir ciddi məsələ də ondan ibarətdir ki, Türkiyə-Ermənistan münasibətləri Qərbə doğru meyllilik, anti-Rusiya və anti-İran xarakterli hərəkətlər təssüratı yarada bilər. Bu kontekstdə Ermənistan rəhbərliyi Türkiyə ilə münasibətlərini Qərb dünyasına, NATO strukturlarına inteqrasiya etmək və nəhayət, Türkiyə vasitəsilə Rusiya asılılığından azad olmaq məqsədilə Qərb ölkələri ilə yaxınlaşma şanslarından biri kimi görür..."

**Deputat Sahib Alıyev isə hesab edir ki, Türkiyə ilə Ermənistan arasında ilişgilər dörd il bundan öncəkindən fərqlənir:** "Daha dəqiqi, Türkiyə Azərbaycanla birgə böyük jest edərək savaş zamanı ordusu darmadağın edilmiş Ermənistanla tam beynəlxalq hüquqa dayanan sülhdə maraqlı olduğunu bildirdi və bunun üçün 3+3 formatı da təklif edildi. Ancaq Ermənistanın bu fürsəti necə dəyərləndirdiyi, ondan sonra baş verənlər də kimsəyə sirr deyil. Bəli, hazırda ABŞ bütün gücü ilə Türkiyə-Ermənistan sərhədlərinin açılmasına çalışır və Bayden administrasiyasına bu, ilk növbədə noyabrdakı seçki üçün lazımdır. Ancaq mən əmin deyiləm ki, Ermənistanda njdeizm, yaxud da tsexakronizm ideologiyasına, yeni Azərbaycan və Türkiyə əleyhinə davamlı düşmənçilik əməllərinə son qoyulmayınca, o ölkə ilə sərhədlər açılacaq, yaxud da sülh anlaşması imzalanacaq. Bəli, cənab Ərdoğanla Paşinyan arasında bu yaxınlarda telefon danışığı olub, birinci onun ardından Fələstini tanıdıqlarına görə ikinciyə təşəkkürünü də bildirib". **S.Alıyev bildirdi ki, amma bu heç də Türkiyənin ən yüksək səviyyədə və özü də dəfələrlə Azərbaycanla əlaqələr yoluna qoyulmayınca, Ermənistanla sərhədlərin açılmayacağı haqda dediklərinin heç də üstündən xətt çəkilməsi anlamı daşımır:** "Eyni zamanda Türkiyədə nəinki haylar, onlardan geosiyasi alət kimi faydalananların da iki qardaş dövlət arasındakı sıx ilişgilərə zərbə vurmaq üçün dəridən-qabıqdan çıxdıqlarından yaxşı xəbərdardılar. Alınmayacaq".

**Siyasi şərhçi Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Türkiyə ilə Ermənistan münasibətlində hər hansı bir dəyişikliyin baş verməsi, o cümlədən quru sərhədlərinin açılması rəsmi Ankara ilə Bakının ortaq qərarı ilə reallaşa bilər:** "Əgər İrəvan düşünürsə ki, Fələstinin dövlət müstəqilliyinin tanınması ilə bağlı qərar Türkiyənin Azərbaycanla razılaşdırmadan, birtərəfli qaydada Ermənistanla quru sərhədlərinin açılmasına, diplomatik və digər əlaqələrin bərpa olunmasına rəvac verəcək, yanılır. Şuşa Bəyannaməsində qeyd olunur ki, Azərbaycan və Türkiyə regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər. Göründüyü kimi, Türkiyə ilə Azərbaycanın yüksək səviyyəli müttəfiqlik münasibətlərinin rəsmiləşdirildiyi sənəddə regional və qlobal təhlükəsizlik, sabitlik məsələlərinin həlli istiqamətində birgə səylərin göstərilməsindən söhbət gedir. Bu baxımdan, Ermənistan Təhlükəsizlik Şurasının katibinin mülahizələrini "İrəvanın arzuları" silsiləsindən bir hissə kimi qəbul etmək lazımdır". **E.Mirzəbəyli xatırlatdı ki, Rəcəb Tayyib Ərdoğan İlham Əliyevin Türkiyəyə son səfəri çərçivəsində mətbuata bəyanatında Ermənistanla bağlı məsələlərdə Türkiyənin Azərbaycanla çiyin-çiyinə hərəkət etdiyini bir daha vurğulamışdı:** "Bu baxımdan, Qriqoryanın fikirlərini ictimai rəyə ünvanlanmış spekulyasiya kimi də qəbul etmək olar. Ermənistanla sülh müqaviləsinin imzalanmasına maneə yaradan səbəblərlə bağlı Azərbaycanın mövqeyi aydındır. Ermənistan müstəqillik bəyannaməsindən, konstitusiyasından, bütövlükdə isə hüquqi-normativ aktlarından ölkəmizə və Türkiyəyə qarşı ərazi iddialarını ifadə edən müddəa və ifadələri çıxarmalı, anklavları Azərbaycana qaytarmalı, Zəngəzur dəhlizi açılmalıdır".

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024



# Fransa mediası Makronu bitirir

## Hətta hakimiyyətə loyal “Le Figaro” və “Le Monde” də prezident haqqında sərt mövqedən çəkinmir

**Formal olaraq, hər şey Fransa prezidentinin Milli Assambleyanın və parlamentin buraxılması ilə bağlı xalqa müraciətindən sonra başladı. Parlament seçkilərinin birinci turu iyunun 30-na, ikinci turu iyulun 7-nə təyin edildi.**

Bakupost.az xəbər verir ki, bu barədə Stoletie.ru-da dərc olunan “Makron taxtını itirir” başlıqlı məqalədə bildirilir.

Qeyd olunur ki, Makron Avropa Parlamentinə seçkilərin ilkin nəticələrindən sonra qəribə qərar verdi. Onun “Renessans” Partiyası cəmi 14,6%, Marin Le Penin partiyası isə 31,4% səs topladı.

Məqalədə qeyd olunub ki, iyunun 18-də respublika prezidenti, nəhayət, parlamenti buraxmasının səbəblərini izah etmək üçün regional mətbuat nümayəndələri ilə görüşmək istəyib. Bundan əlavə, o, 7 iyul seçkilərindən sonra nə etmək niyyətində olduğunu jurnalistlərlə bölüşüb.

Fransanın “La Depeche” qəzeti bu görüş haqqında ətraflı məlumat yayıb. “Siz niyə mənim əzab çəkməyimi istəyirsiz? Mən parlamentin buraxılmasına görə bir saniyə də olsun, peşman deyiləm”, - Makron deyib.

**Məqalədə qeyd olunur ki, onun verdiyi qərar heç də qeyri-ciddi olmayıb - o, hər şeyi əvvəlcədən düşünüb:** “Müxalifət payızda hökumətə etimadsızlıq səsverməsi keçirəcəyi ilə hədələyib. Hökumətin dağılması ilə bağlı mümkün problemi gözləmədən Makron qabaqlayıcı addım atmağı seçib. Onun izahatı, etiraf etmək lazımdır ki, o qədər də inandırıcı deyil.

Üstəlik, Makron fransızların parlamentin buraxılmasına reaksiyasını şərh etməkdən imtina edib. O, gözəl başa düşür ki, Fransa ona qəzəblidir. Lakin o, bunun üzərində dayanmaq niyyətində deyil və irəliyə doğru addım atmaq istəyir. Makronun gələcəkdə hakimiyyəti saxlamaq imkanını inkar etmək olmaz - şübhəsiz ki, Fransanın hazırkı prezidenti də daxil olmaqla marionet siyasətçilər daha əlverişsiz şəraitdə vəzifələrində qalıblar. Məsələn, COVİD-19 böhranı zamanı Kanada yük maşınlarının əsl qiyamına səbəb olan və bir müddət əvvəl SS veteranını Kanada parlamentinə dəvət etməklə məşhurlaşan Castin Trüdonu götürək.

Amma yenə də Fransa mətbuatında Makrondan açıq-aşkar narazılıq ifadə olunur. Hətta hakimiyyətə loyal “Le Figaro” və “Le Monde” də prezident haqqında sərt mövqedən çəkinmir. "Le Figaro" yazır ki, Makronun tərəfdarları dövlət başçısının gözlənilməz qərarından sonra hələ də özünə gələ bilmirlər".

**Müəllifin fikrincə, təəccüb və qəzəb o qədər böyükdür ki, bəzi insanlar Makronizm səhifəsini çevirmək niyyətindədirlər:** “Fransa prezidentini çətin ki, öz adına hansısa hərəkat yarada bilən fiqur adlandırmaq olsun. O, Şarl de Qoll və ya Fransua Mitteran deyil. "Makronun tərəfdarları" deyiləndə 2017-ci il seçkiləri zamanı onu dəstəkləyən və sonra yüksək vəzifələrə təyin olunan şəxslər nəzərdə tutulur. İndi bu adamlar əsasən bizneslə məşğul olur və “öz” prezidentlərini kənardan izləyirlər. Lakin Makronun son qərarları fonunda onlar əksər fransızlar kimi, “çaşqınlıq və anlaşılmazlıq arasında vurnuxurlar””.

❑ “Yeni Müsavat”

# Bakı daha bir NATO ölkəsi ilə hərbi əməkdaşlığı gücləndirdi

## Azərbaycan iqtisadi əlaqələri ən yüksək səviyyədə olan İtaliya ilə hərbi əməkdaşlığı da ən yüksək səviyyədə inkişaf etdirmək əzmindədir




**İyunun 26-da İtaliyanın “Leonardo” şirkətinin istehsalı olan “C-27j Spartan” hərbi-nəqliyyat təyyarəsi Bakı Beynəlxalq hava limanında Azərbaycan prezidenti İlham Əliyevə təqdim edilib. Tədbirdə İtaliyanın müdafiə naziri Quido Krosetto, xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli, “Leonardo” şirkətinin prezidenti Stefano Pontekorvo iştirak ediblər.**

Dövlət başçısına təyyarənin taktiki-texniki xüsusiyyətləri, istismarı və digər göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, təyyarə mürəkkəb coğrafi relyef və əməliyyat şəraitində həm müdafiə, həm də mülki müdafiə tapşırıqlarını yerinə yetirməyə qadirdir. “C-27J Spartan” tipli təyyarədən hərbi nəqliyyat, paraşütçülərin və yüklərin havadan atılması, eləcə də tibbi tapşırıqların yerinə yetirilməsi əməliyyatlarında istifadə olunacaq.

İlham Əliyev iyunun 26-da Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlət başçısı İtaliyanın çox inkişaf etmiş hərbi-texniki sənayeyə malik olduğunu vurğulayaraq, bu gün təqdim olunan “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsinin Azərbaycana gətirilməsini əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirib.

Qeyd edək ki, İtaliyanın “Leonardo” şirkəti Avropanın qabaqcıl silah istehsalçısı hesab olunur ki, onun məhsulları olan “M-346” təlim təyyarələri artıq Azərbaycan HHQ-nin sərəncamındadır. Bu ayın əvvəlində Azərbaycan müdafiə nazirinin müavini-Hərbi-Texniki Təchizat Baş İdarəsinin rəisi Aqil Qurbanov bu ayın əvvəlində İtaliyada səfərdə olub, bu ölkənin müdafiə naziri cənab Quido Krosetto ilə görüşüb.

Hərbi Dəniz Qüvvələrinin komandanı, vitse-admiral Sübhan Bəkirovun da iştirak etdiyi görüşdə Azərbaycan ilə İtaliya arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. Ötən ilin oktyabrında Baş Qərargah rəisi Bakıda səfərdə olanda İtaliyanın aparıcı nəşrlərindən olan “La Republicca” yazıb ki, Azərbaycan İtaliyadan irimiqyaslı silahların alınması ilə bağlı danışıqlar aparır. Bakının alış-veriş siyahısına təlim təyyarələri, hücum tüfəngləri, özüyeriyən zenit silahları, zenit-raket batareyaları, nəqliyyat təyyarələri və sualtı qayıqların daxil olduğu qeyd edilib .

“Leonardo” holdinqi 1948-ci ildən fəaliyyət göstərir. “Tornado” hərbi qırıcılarının və “Ghibl”i hücum təyyarələrinin, “Boeing 767” və ”ATR” sərnişin təyyarələrinin hazırlanması da daxil olmaqla, irimiqyaslı beynəlxalq layihələrdə iştirak edib. “Leonardo” helikopter istehsalında dünya lideridir. Şirkətin helikoptel istehsal edən zavodlarında 13 mindən çox işçi çalışır. İstehsal müəssisələri İtaliya, Polşa, Rusiya, Böyük Britaniya və ABŞ-da yerləşir.

Beləliklə, görünən budur ki, Azərbaycan iqtisadi əlaqələri ən yüksək səviyyədə olan NATO ölkəsi İtaliya ilə hərbi əməkdaşlığı ən yüksək səviyyədə inkişaf etdirmək əzmindədir.

**“Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri Emin Həsənli Azərbaycanın dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa daim önəm verdiyini vurğuladı:** “İtaliya dünyanın ilk yeddiliyinə daxil olan ölkədir. İqtisadiyyatına və bir çox sahələrə görə inkişaf edib. Avropada da dörd əsas ölkədən biridir, NATO ölkəsidir. Hərbi qüdrətinə görə ən tanınmış dövlətlərdən biri sayılır. Tarixi ənənələri barədə də hər kəs bilir. Azərbaycanla siyasi, iqtisadi və mədəni əlaqələri yüksəkdir. Son dövrlərdə də hərbi-texniki əməkdaşlıq daha da genişlənidirilib. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan İtaliyadan hərbi texnikalar alır. Eyni zamanda ola bilər ki, müdafiə sənayesi sahəsində birgə silahların istehsalı məsələsinə baxıla bilər. Müasir texnologiyalardan istifadədə də Azərbaycan İtaliyadan yararlana bilər. Biz qardaş Türkiyə ilə bu sahədə daha sıx əməkdaşlıq edirik. İsrail və bir çox ölkələr də bura daxildir. İtaliya 44 günlük Vətən savaşında haqq işimizə dəstək verdi. Ümumiyyətlə, Qarabağ məsələsində haqq işimizə hər zaman dəstək verib. İqtisadi əməkdaşlığı Avropa ölkələri yaxından davam etdiririk və bu sırada da İtaliya öndə gəlir. Bu ölkə ilə əməkdaşlığımız bizim milli maraqlara tam uyğundur. Ölkələrlə əvvəl siyasi, sonra da iqtisadi əməkdaşlıq çox önəmlidir. Daha sonra da hərbi əməkdaşlıq gəlir. Bunların hamısı bir-birini tamamlamalıdır. Azərbaycan dövlətinin qarşısına qoyduğu məqsəd odur ki, dünyanın ən qabaqcıl ölkələri ilə milli və dövlət maraqlarımıza uyğun olaraq, sıx əməkdaşlıq etsin”.

Hərbi analitik Səxavət Məmməd bildirdi ki, İtaliya ilə Azərbaycan münasibətləri hər sahədə inkişaf edir. Hərbi-texniki sahədə İtaliya ən yaxşı tərəfdaşlardan biri sayıla bilər. Çünki İtaliyanın istehsal etdiyi hərbi texnikalar, silahlar müasir standartlara cavab verir. Azərbaycan İtaliyadan zenit silahlar, zenit-raket batareyaları da ala bilər. Hesab edirəm ki, bu yöndə addımların atılacağını yaxın zamanda görəcəyik. Hərbi-Texniki Təchizat Baş İdarəsinin rəisi Aqil Qurbanovdan başqa Hərbi Dəniz Qüvvələrinin komandanı, vitse-admiral Sübhan Bəkirovun İtaliyanın müdafiə naziri Quido Krosetto görüşü diqqət çəkəndir. Çünki Azərbaycan Hərbi Dəniz Qüvvələrinin arsenalında olan döyüş gəmiləri 60-70-ci illərin texnologiyaları əsasında yığılıb. Azərbaycan donanmasının yenilənməyə ehtiyacı var. Bu yöndə Azərbaycana çoxlu təkliflər verilir. Məsələ ondadır ki, bu çox bahalı layihə olacaq. Bilirik ki, İtaliya şirkətləri ən müasir döyüş gəmiləri istehsal edə bilir. Bu yöndə hansısa addımların atılması da mümkün variantdır.

Azərbaycan Ermənistandan fərqli olaraq NATO ölkələri ilə əməkdaşlığı NATO-ya daxil olmaq kimi təqdim edir və siyasi qərarlar verir. Azərbaycan isə NATO üzvü olan ölkələrlə sadəcə olaraq müəyyən xətt üzrə əməkdaşlıq edir. Bu isə Rusiyanı qıcıq etmir. Azərbaycan özünə lazım olan, ehtiyac gördüyü silahları, hərbi texnikaları almaqda davam edəcək. İtaliyanın silah sənayesi Azərbaycan üçün uyğundur. İtaliyanın silah sənayesi sahəsindəki şirkətləri uzun zamandır ki, Azərbaycana gəlir, məhsullarını təqdim edir və danışıqlar aparır. Hesab edirəm ki, iki ölkə arasındakı bu əlaqə gələcəkdə daha da inkişaf edəcək”.

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

Yeni Müsavat
N 110 (8483) 28 iyun 2024

**NATO-nun baş katibi vəzifəsinə təsdiqlənən Niderlandın sabiq baş naziri Mark Ruttenin sələfi Yens Stoltenberqdən xaraktercə və siyasi baxışlarına görə fərqlənməsinin hərbi alyansın taleyinə, ümumi kursuna hansı miqyasda təsir edəcəyi müzakirə mövzusudur. Ruttenin oktyabrın 1-də Yens Stoltenberqin yerinə vəzifəyə keçəcəyi gözlənilir.**



# NATO-nun yeni baş katibi - pianoçu, orta məktəb müəllimi...

## Köhnə model "Saab" avtomobilinin sahibi olan Rutte bir neçə il əvvələ qədər smartfondan istifadə etmirdi

Bəs Mark Rutte kimdir?

Məlumdur ki, Rutte adətən evdən işə velosipedlə gedir. Həm də istedadlı pianoçu olan sabiq baş nazir bir dəfə Haaqanın mərkəzi dəmiryol vağzalında ictimaiyyət qarşısında pianoda ifa edib. Ətrafındakıların fikrincə, Rutte yumor hissi, şən xasiyyəti və hazır cavabları ilə seçilir.

Ruttenin başqa bir xüsusiyyəti böhranları idarə edilməsində çox uğurlu olmasıdır. Mark Rutte çıxışlarından birində deyib: "Əsl liderlik müxtəlif baxışları dinləmək və anlamaq bacarığı tələb edir".

Niderland şirkətinin Şərqi Hindistandakı nümayəndəsi İzak Ruttenin 6 övladının ən kiçiyi Mark Rutte 14 fevral 1967-ci ildə Haaqada anadan olub. Uşaqlıqdan fortepianoda ifa edən Ruttenin məqsədi konservatoriya təhsili almaq imiş, amma sonradan fikrini dəyişərək Leyden Universitetinin Tarix fakültəsinə daxil olur. 1992-ci ildə magistr dərəcəsini bitirir.

O, insan resurslarının idarə edilməsi sahəsində uzun illər çalışıb. Siyasətdə sürətli yüksəliş nümayiş etdirən Rutte 2002-ci ildə xristian demokrat baş nazir Yan Peter Balkenendenin rəhbərlik etdiyi koalisiya hökumətində sosial məsələlər və məşğulluq üzrə dövlət naziri olub. O, daha sonra təhsil, mədəniyyət və elm naziri kimi hökumətdə təmsil olunub.

Sonralar hökumət başçısı olan siyasətçi Niderlandın ən uzun müddət vəzifədə olan baş naziri kimi 14 il fasiləsiz olaraq bu vəzifəni tutub. Baş nazir olduğu müddətdə bir çox siyasi böhranla üzləşən Rutte bütün bunlardan asanlıqla keçərək yoluna davam etməyi bacardığı üçün heç bir şeyin yapışmadığı "Teflon" ləqəbini alıb. İtaliya, Yunanıstan və Portuqaliya kimi ölkələrə qarşı sərt münasibətinə görə Cənubi Avropada baş verən iqtisadi böhran zamanı "Cənab Xeyr" ləqəbini alan Rutte son illərdə "Cənab Oldu" adlandırılır. (Modern.az).

Siyasi şərhçilərin fikrincə, ən kritik anlarda belə sakit və gülərüz qalan Rutte gözlənilməz ittifaqlar qurmaq və saxlamaqda mahir siyasətçidir.

Köhnə model "Saab" avtomobilinin sahibi olan Rutte bir neçə il əvvələ qədər smartfondan istifadə etmirdi. Telefonunda yazılan mesajları sildiyi üçün siyasi rəqibləri tərəfindən tənqid edilən və məlumatları gizlətməkdə günahlandırılan Rutte köhnə model "Nokia"da yer qalmadığı üçün mesajları daim sildiyini bildirmişdi. Bu müzakirələrə görə Rutte "Nokia" ilə vidalaşaraq 2022-ci ildə smartfona keçib.

Vərdişlərini asanlıqla dəyişməyən Rutte müntəzəm olaraq kofe içmək, səhər yeməyi və nahar üçün eyni məkanlara üstünlük verir. Subay və tək yaşayan Rutte anasına olan bağlılığı ilə də tanınırdı. Rutte 2020-ci ildə koronavirus pandemiyası zamanı 96 yaşında vəfat edən anası Miek Rutte ilə hər həftə ikilikdə nahar edirmiş.

Niderlandın baş naziri olaraq aylıq 10 min avro civarında maaş almış siyasətçi NATO-nun baş katibi olanda daha yüksək gəlir əldə edəcək. NATO baş katibinin maaşı hazırda ayda 26,5 min avroya yaxındır. Bu artımın Ruttenin təvazökar həyatını çox dəyişməyəcəyini deyirlər.

Hazırda Rutteni narahat edən yeganə məsələ onun illərdir davam etdirdiyi orta məktəb müəllimi işini saxlaya bilib-bilməyəcəyidir. 2010-cu ildə Niderlandın baş naziri olduqdan sonra Rutte həftədə bir gün Haaqadakı orta məktəblərdən birində sosial elmlər müəllimi kimi fəaliyyət göstərir. Müəllimlikdən böyük zövq aldığını bildirən Rutte bir qədər sərt və intizamlı sayılsa da, şagirdləri tərəfindən sevilir.

Rutte NATO-nun Brüsseldəki işi ilə yanaşı, mümkün olduğu qədər Haaqada yaşamağa davam edəcəyini, ona görə də tədrisi davam etdirməyin yollarını axtardığını bildirib. Nazirlər Kabinetinin son iclasından sonra Rutte NATO-dakı yeni vəzifəsinə baxmayaraq, müəllimlik fəaliyyətini davam etdirə bilməyin yollarını araşdıracağını söyləyib.

Rutte Anders Foq Rasmussen və Yens Stoltenberqdən sonra bu vəzifəyə təyin olunan üçüncü keçmiş baş nazir və dördüncü Niderland siyasətçisi olacaq.

❑ **"Yeni Müsavat"**

---

**İyunun 24-də "WikiLeaks" portalının təsisçisi, jurnalist Culian Assanc Londondakı Belmarş həbsxanasından azad olunub və dərhal Böyük Britaniyanı tərk edib. 2012-2019-cu illərdə Ekvadorun Böyük Britaniyadakı səfirliyində yaşayan jurnalist burada siyasi sığınacaq üçün müraciət edib. Lakin o həbs edilərək 1901 gün keçirdiyi iki-üç metr ölçülü təkadamlıq kameraya göndərildi. Assanc onu milli təhlükəsizliklə bağlı məxfi məlumatları yaymaqda ittiham edən ABŞ məhkəmə orqanları ilə razılaşma sayəsində azadlığa buraxılıb. "WikiLeaks"in yaradıcısının hansı şəraitdə həbsxanadan çıxdığı, niyə ABŞ Ədliyyə Nazirliyi ilə sövdələşməyə qərar verdiyi və bunun gələcəkdə onun üçün necə nəticələnəcəyi sualları var:**

# Culian Assanc azadlığı müqabilində ABŞ-ın hansı şərtlərini qəbul edib?

## Robert Kennedi Assancı "bir nəslin qəhrəmanı" kimi qiymətləndirib və deyib ki, o, ittihamların heç birində özünü təqsirli bilməməlidir



"Assanc prokurorluqla ilkin razılığa gəlib və müqabilində sərbəst buraxılıb. O, iyunun 24-də səhər saatlarında 1901 gün qaldığı Belmarş həbsxanasını tərk etdi. London Ali Məhkəməsi onu girov müqabilində azadlığa buraxıb", - "WikiLeaks" nümayəndələrinin bəyanatında qeyd olunub.

Ayna.az yazır ki, belə bir razılaşmanın mümkünlüyü barədə məlumatlı mənbələrə istinadən hələ mart ayında "The Wall Street Journal" məlumat vermişdi. Eyni zamanda ABŞ prezidenti Co Bayden apreldə işin bağlanmasını mümkün saymışdı. Siyasətçi Avstraliyanın baş naziri Entoni Albanesenin təqibə son qoymağa çağırışını şərh edərkən, "biz buna baxırıq" demişdi.

Assanc 175 ilə qədər həbs cəzası ala biləcəyi on səkkiz maddədən yalnız birində günahını etiraf etdi. Bu bənd ABŞ-ın milli təhlükəsizliyi ilə bağlı məlumatların qanunsuz yayılmasına aiddir. Jurnalist prokurorluğun təkid etdiyi ABŞ-a ekstradisiya edilmədən Böyük Britaniyada razılaşma əldə edə bildi. Eyni zamanda London Ali Məhkəməsi əvvəllər jurnalistin həbsdə olduğu müddətdə səhhətinin pisləşməsi ilə əlaqədar onun ekstradisiyasından imtina edib. Bununla belə, Assanc iş üzrə dinləmələrdə iştirak etməli olacaq və bu prosesdə günahını etiraf edəcək, sonra müqaviləni imzalayacaq.

"WikiLeaks" qeyd edirdi ki, ABŞ Ədliyyə Nazirliyi ilə sövdələşmə hələ rəsmi olaraq tamamlanmayıb. Assanc tezliklə Mariana adalarının şimalındakı Saipan adasında (ABŞ ərazisi olan Sakit Okeandakı arxipelaq) iyunun 26-da səhər saatlarında hökm oxunacaq dinləmələrə getdi. Federal məhkəmə Assancı təqsirli bilib, 62 ay həbs cəzası verdi. Lakin bu, müttəhimin artıq Böyük Britaniyada həbsxanada keçirdiyi müddətdir, ona görə də cəzasını ABŞ-da çəkməli olmadı.

Məhkəmənin Mariana adalarının Saipan şəhərində keçirilməsi razılaşmanın şərtlərindən biri idi. Arxipelaq həm də jurnalistin vətəni Avstraliya ilə nisbi yaxınlıqda yerləşir.

Maraqlıdır ki, Assancın vətənində səlahiyyətlilər onun azadlığa buraxılması ilə bağlı ətraflı şərh verməyiblər. Baş nazir Entoni Albanese yalnız işi "çox uzanan" adlandırdı və hökumət jurnalistə konsulluq yardımının davam etdiyini vurğuladı. "Biz bilirik ki, Avstraliya vətəndaşı Culian Assanc Birləşmiş Ştatlarda mühakimə olundu", - baş nazirin ofisindən bildirilib.

ABŞ-da Assancın azadlığa buraxılması Respublikaçılar Partiyasının nümayəndələri, xüsusən də ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Marcori Taylor Qreene tərəfindən müsbət qarşılanıb.

Eyni zamanda keçmiş respublikaçı vitse-prezident Mayk Pens sövdələşməni "ədalətin pozulması" hesab edib və qeyd edib ki, jurnalist təhlükəsizliyə təhdid olduğu üçün mühakimə olunmalıdır.

ABŞ prezidentliyinə namizəd olmuş Robert Kennedi isə Assancı "bir nəslin qəhrəmanı" kimi qiymətləndirib və deyib ki, o, ittihamların heç birində özünü təqsirli bilməməlidir. Jurnalist Taker Karlson da öz növbəsində sevinclə "yaxşı bir insanın azadlığa buraxıldığını" söyləyib.

ABŞ-da prezident seçkisi ərəfəsində Assancın azadlığa buraxılması Co Baydenin seçicilərin rəğbətini qazanmaq cəhdi hesab olunur. Bunu əvvəllər prezidentliyə namizəd olmağa cəhd edən amerikalı iş adamı Vivek Ramasvami qeyd edib.

Assanc müxtəlif məxfi materialları mübadilə etmək üçün 2006-cı ildə "WikiLeaks" saytını təsis edib. 2010-cu ildə portal xüsusilə İraq və Əfqanıstandakı müharibələr zamanı ABŞ-ın hərəkətlərinə dair sənədləri dərc edib. Onların arasında 2 "Reuters" jurnalisti də daxil olmaqla, 11 nəfərin ölümü ilə nəticələnən vertolyotun Bağdada hücumunun videosu da var idi. Bu, tarixdə məxfi hərbi sənədlərin ən böyük sızması idi. ABŞ-da buna "milli təhlükəsizliyə təhdid" kimi baxıldı. 2016-cı ilin oktyabrında, ABŞ-da prezident seçkilərinə az qalmış "WikiLeaks" saytında prezidentliyə Demokratlar Partiyasından namizəd Hillari Klintonun seçki kampaniyasının sədri Con Podestanın yazışmaları dərc olundu. Məktublarda Klinton Fonduna mədən ianələri müzakirə olunub. Nəticədə, ABŞ Ədliyyə Nazirliyi 2019-cu ilin may ayında Assanca qarşı 17 ittiham irəli sürdü, sonra daha bir ittiham əlavə etdi. Ümumilikdə jurnalisti 175 ilə qədər həbs cəzası gözləyirdi.

Bununla belə, Assancın ilk məhkəməsi İsveçdə ittiham olunduğu cinsi təcavüz və zorlama olub. 2010-cu ilin avqustunda məhkəmə jurnalist barəsində həbs qərarı çıxarıb. Jurnalist ilk dəfə 2010-cu ildə İsveç tərəfinin tələbi ilə Londonda həbs edilib, lakin o, zamina buraxılıb. İsveçə ekstradisiya olunmamaq üçün Assanc daha sonra ərazisi toxunulmazlığa malik olan Ekvadorun Böyük Britaniyadakı səfirliyinə sığınıb.

Səfirlikdə yeddi il qaldı, lakin 2019-cu ildə jurnalist siyasi sığınacaqdan məhrum edildi. Bundan sonra ABŞ-ın tələbi ilə polis tərəfindən diplomatik missiyadan çıxarılaraq Londondakı Belmarş həbsxanasına göndərildi.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# 3909 müəllim yeri necə doldurulacaq?

## Elşən Qafarov: “Qanunla sertifikasiyadan kəsilən müəllimlərin hamısının əmək müqaviləsinə xitam verilə bilməz, çünki... ”

**Ölkədə təkrar sertifikatlaşdırmada iştirak edən müəllimlərdən 3 909-u müvafiq keçid balını toplaya bilməyib. “”Builki sertifikasiya imtahanlarında 64 min 500 müəllim iştirak edib". “Report” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev “Sertifikatlaşdırma 2024: peşəkar müəllim - keyfiyyətli təhsil” adlı tədbirdə çıxışı zamanı deyib.**

Nazir bildirib ki, onlardan 31 852-si ibtidai sinif, 9 892-si Azərbaycan dili və ədəbiyyat, 8 807-si riyaziyyat, 13 957-si isə xarici dil müəllimi olub.

E.Əmrullayev qeyd edib ki, sertifikasiya imtahanlarında 20 faiz (6 238) müəllim yüksək nəticə göstərib: “10 faiz müəllim isə qənaətbəxş nəticə göstərib. Ümumilikdə isə 27 min 379 müəllim uğur qazanıb”.

O vurğulayıb ki, hər iki cəhddə keçid balını toplaya bilməyənlər cəmi 4 030 nəfərdir ki, bu da ibtidai sinif müəllimlərinin 13 faizini təşkil edir: “443 müəllim isə hələ prosesdə iştirak etməyib”.

“Astara rayonunda hər üç müəllimdən biri ilə sağollaşmaq məcburiyyətində olacağıq. Çünki həmin rayon üzrə zəif nəticə çoxdur”, - nazir əlavə edib.

Bəs təkrar sertifikatlaşdırmadan kəsilən müəllimlər növbəti il sertifikasiyada iştirak edərək işə qayıtmaq imkanları olacaqmı?

**Mövzu ilə bağlı təhsil eksperti Elşən Qafarov “Yeni Müsavat”a danışıb:** “Öncə onu qeyd edim ki, bu günə qədər sertifikasiyadan kəsilən müəllimlərin sayı 5 mindən çoxdur. Belə ki, ötən il 745 nəfər, bu il isə ümumilikdə 4300 nəfər sertifikasiyadan kəsilib. Beləliklə, say 5 mini ötüb. Həmin müəllimlərin əmək müqaviləsinə xitam verilməsi qanunvericiliyə əsasən Əmək Məcəlləsinin 70-ci maddəsinin c bəndi ilə həyata keçirilir. Həmin bənddə deyilir ki, tutduğu vəzifəyə uyğun gəlməməsi ilə bağlı müvafiq orqanın qərarı ilə əmək müqaviləsinə xitam verilir.

Amma proses kobud şəkildə qanunvericiliyin pozulması ilə müşahidə olunur. Belə ki, məktəb direktorlarına tapşırılıb ki, müəllimlərin ərizələrini alsınlar. Müəllimlərə deyilir ki, sizin əmək müqavilənizə Əmək Məcəlləsinin 70-ci maddəsinin c bəndi ilə xitam verilsə, siz bir daha heç bir yerdə, heç vaxt müəllim işləyə bilməyəcəksiz, ondansa gəlin ərizə yazın, işdən öz ərizənizlə gedin. Məqsəd sertifikasiyadan kəsilənlərin sayını aşağı endirməkdir. Bu isə çox gülüncdür və qanunvericiliyin çox kobud şəkildə pozulması deməkdir".

**Ekspert qeyd edib ki, Əmək Məcəlləsinin 70-ci maddəsinin c bəndi ilə əmək müqaviləsinə xitam verilməsi müəllimin əmək hüququnu əlindən almır:** “Ümumiyyətlə, hər hansı peşə üzrə işləmək hüququ yalnız məhkəmənin qərarı ilə alına bilər. Hətta Əmək Məcəlləsinin 70-ci maddəsinin ç bəndi ilə - hansı ki, bunu c bəndi ilə səhv salaraq müəllimləri aldadırlar, bu bəndlə əmək müqaviləsinə xitam verildikdə belə, qanunvericiliyə əsasən yalnız 1 il həmin sahədə çalışa bilməz. Amma qeyd etdiyim kimi, bu ç bəndidir, c bəndi deyil.



Yaranmış vəziyyətdən yararlanan bəzi məktəb direktorları müəllimlərdən pul tələb edir və deyirlər ki, gəlin ərizə yazın, əmək kitabçanız korlanmasın, gələcəkdə hər hansı işdə işləyə bilərsiniz. Bu, çox təəssüfedici haldır. Qanunvericiliyə əsasən Təhsilverənlərin Sertifikatlaşdırılması Şurası qərar qəbul edir, həmin siyahını hazırlayır, siyahı Məktəbəqədər və Ümumi Təhsil Agentliyinə təqdim olunur, agentlik isə müvafiq əmr verərək, həmin müəllimlərlə əmək müqaviləsinə xitam verilməsi ilə bağlı təhsili idarəetmə orqanlarına məktub göndərir. Həmin məktuba əsasən də yeni tədris ilinin başlanmasına qədər məktəb direktorları Əmək Məcəlləsinin 70-ci Maddəsinin c bəndinə uyğun olaraq əmək müqaviləsinə xitam verəcək".

**O ki qaldı sertifikasiyadan kəsilən müəllimlərin gələcək taleyinə, Elşən Qafarov qeyd edib ki, həmin müəllimlərin heç də hamısı ilə əmək müqaviləsinə xitam vermək olmaz:** “Belə ki, Əmək Məcəlləsinin 79-cu maddəsinə əsasən əmək müqaviləsinin işəgötürən tərəfindən xitam verilməsini məhdudlaşdıran hallar var. Hamilə qadınlar, 3 yaşına qədər övladı olan qadınlar və yaxud 3 yaşına qədər övladını təkbaşına böyüdən valideynlər, məktəb yaşına qədər, yəni 6 yaşı tamam olana qədər övladını təkbaşına böyüdən və yeganə qazanc yeri həmin müəssisə olan şəxslər, ailəsində 1-ci qrup əlil olan şəxslər və yaxud 18 yaşına qədər əlilliyi müəyyən edilmiş övladı olan valideynlərlə əmək müqaviləsinə xitam verilməsi qadağandır.

Sertifikasiyadan keçə bilməyən müəllimlərə demək istəyirəm ki, əgər doğrudan da müəllim işləmək istəyirlərsə, hazırlaşıb, növbəti müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edib, uğur qazanıb, vakant yerlər üzrə müəllim işləyə bilərlər".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# 8 mindən çox tələbə təhsil borcuna görə qovulursa... - çıxış yolu nə?

## Ekspert hesab edir ki, Azərbaycanda təhsil haqları çox yüksəkdir, aşağı salınmasa...

**Ötən il təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə təhsil müəssisələrindən xaric edilənlərin sayı açıqlanıb. “Abituriyent” jurnalının 12-ci nömrəsində qeyd edilir ki, 2023-cü ildə ümumilikdə 8 631 nəfər təhsil haqqının ödənilməməsinə görə təhsil aldığı müəssisədən xaric edilib.**

Bunlar arasında bakalavriat, magistratura, tam orta ixtisas bazası və ümumi orta ixtisas bazası üzrə təhsil alan tələbələr olub.

8600 tələbənin təhsil haqqına görə təhsil aldığı müəssisədən kənarlaşdırılması təəssüfedicidir. Məlumdur ki, ölkədə ödənişli təhsil alan tələbələrə yardım etmək üçün Tələbə Təhsil Kredit Fondu fəaliyyət göstərir. Maraqlıdır, adıçəkilən fond bu qədər tələbənin təhsil almasına niyə şərait yaratmayıb?

**Təhsil eksperti Kamran Əsədov** mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, Azərbaycanda təhsil haqları ölkə əhalisinin böyük hissəsinin gəliri ilə müqayisədə çox yüksəkdir: “Nəinki ölkə əhalisinin gəliri, qonşu dövlətlərin ali təhsil müəssisələrində qüvvədə olan




təhsil haqqı ilə müqayisədə də Azərbaycan universitetləri daha bahalıdır. Ona görə də ali məktəblərdə oxumaq şansı əldə edən, ancaq ödənişsiz təhsil üçün cəmi bir neçə balı çatmayan xeyli gənc maddi çətinlik ucbatından bu imkandan yararlana bilmir.

Ali təhsil müəssisələrində kadr hazırlığı həyata keçirildiyi ixtisaslar üzrə təhsil haqları ona sərf olunan xərclər smetası əsasında müəyyən olunur. Bir il ərzində tədris olunan fənlərə görə müəllimlərə ödəniləcək əmək haqqı, sərf olunacaq bütün resurslar hesablanaraq təhsil haqqı müəyyən olunur. Tələbənin təhsil müəssisələrinə ödənilməsi nəzərdə tutulan təhsil haqqına hətta universitetin saxlanması üçün nəzərdə tutulan, layihələrin həyata keçirilməsi üçün zəruri olan xərclər də daxildir. Yeni ixtisaslar üzrə müəyyən edilmiş təhsil haqlarında müxtəlif təhsil haqları ixtisaslar üzrə plan yerlərinin sayı da təsir göstərir. Xarici ölkələrdə fəaliyyət göstərən universitetlərdə isə bu, adambaşına düşən xərclər smetası əsasında müəyyən edilir. Məhz buna görə də Azərbaycan universitetlərinin təhsil haqqı dünyanın 1000 universitetindən bahadır. Keyfiyyət isə onlardan dəfələrlə aşağıdır. Belə ki, müəyyən ixtisaslar var ki, plan yeri çoxdur və müəyyən edilmiş xərclər smetası üzrə ortaya çıxan məbləğ daha çox tələbə arasında bölüşdürülür ki, bu zaman ortaya az məbləğ çıxır. Amma xalq çalğı alətləri, solo oxuma, dirijorluq və s. kimi ixtisaslar var ki, onların plan yeri az olduğu üçün bütün xərclər az plan yeri arasında bölüşdürülür və nəticədə bu kimi ixtisaslar üzrə yüksək təhsil haqları formalaşır. Bu, əlbəttə ki, təklif olunan qiymətlərdir. Ali məktəblərin plan yerləri tam şəkildə dolmur. Müəyyən sayda plan yeri boş qalır ki, bu zaman öncədən planlaşdırılmış maliyyə hesabatlarında kəsir yaranır. Ona görə də ali təhsil müəssisələri də təhlükəsizlik marjiyasını müəyyən etmək üçün təhsil haqlarını daha da qaldırırlar.

Təəssüflər olsun ki, son 3 ildə 8 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoyub. Bu təhsil haqları kifayət qədər böyük rəqəmdir. Nəzərə alsaq ki, Azərbaycan gəncləri daha az təhsil haqqı ödəməklə qonşu ölkələrdə daha yüksək təhsil ala bilərlər, bu zaman biz böyük sayda insanın xaricə üz tutmasına şərait yaratmış oluruq. Təhsil haqları müəyyən olunarkən istər Nazirlər Kabineti, istərsə də universitetlər təkcə sərf olunan xərcləri düşünməməlidirlər. Onlar həmin o qədər yüksək məbləğdə vəsait ödəyib təhsil alan tələbələrin sonradan əmək bazarında iş tapması, alacağı əmək haqqını da nəzərə almalıdırlar. Təəssüf ki, tələbələrin təhsil aldıqları müddətdə ödədikləri təhsil haqlarını geri qazanmaq üçün indiki əmək haqqı məbləği ilə 10 ilə qədər vaxt lazımdır".

**Ekspert dünya təcrübəsinə istinad edərək deyib ki, dünyada bahalı universitetlər çoxdur:** “Məsələn, Harvard Universiteti. "Round University Ranking" Beynəlxalq reytinqinin (RUR-2021) 2021-ci il üzrə nəticələrinə əsasən, dünyanın birinci ən reytinqli bu universiteti dünyanın ən bahalı universitetlərindəndir. Azərbaycanda da bahalı universitetlər var. Amma bahalı ixtisaslar daha çoxdur. Üstəlik, qiymətlər heç də ali məktəbin dövlət, ya da özəl universitet olması ilə də əlaqəli deyil. Hazırda Azərbaycanda dövlət universitetlərində ən yüksək təhsil haqqı 6500 manat, ən aşağı təhsil haqqı isə 1000 manatdır. Qardaş Türkiyənin dövlət universitetlərində minimum təhsil haqqı 100, maksimum təhsil haqqı 3000 manatdır. Rusiyada bu rəqəm 400-3500 manat arasında dəyişir. Ukraynada 500-2500 manat məbləğində təhsil haqları dəyişir. Bu, dövlət universitetində olan təhsil haqlarıdır. Özəl universitetlərdə isə rəqəmlər fərqlidir.

Beləliklə, onu deyə bilərəm ki, adı dünya universitetləri siyahısına düşməyən Azərbaycan ali təhsil müəssisələrində əhalinin imkanları ilə tərs mütənasib - yüksək dəyərləndirilən təhsil haqqı özlüyündə bir çox problemə yol açır. Məsələn, yüksək təhsil haqqı ixtisas seçiminə təsirsiz ötüşmür. Gənclərin qonşu ölkələrdə fəaliyyət göstərən daha ucuz ali məktəblərə üz tutmasına səbəb olur".

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**



YENİ MÜSAVAT
N 110 (8483) 28 iyun 2024

# Qadınları din adı altında aşağılamaq cəhdi

## Ekspert: "İnsanlar ilahiyyatçılara deyil, əsası olmayan həmin o fikirlərə inanır..."

**Yenə qadınlarla bağlı məsələ gündəmdədir. Bu dəfə Xalq artisti Akif İslamzadə qadınlarla bağlı səsləndirdiyi açıqlamaya görə tənqid olunub. "Yeni Müsavat" xəbər verir ki, onun "Yeni Sabah"a "Allah qadınlara elm verməyib, onlar elm öyrədə bilməz" açıqlaması sosial şəbəkədə birmənalı qarşılanmayıb. Akif İslamzadə həmin məsələ haqda yenidən açıqlama ("Globalinfo") verərək əslində qadınları alçaltmadığını bildirib. Amma verdiyi açıqlama ilə qaş vurmaq əvəzinə gözünü də çıxarıb:**

"Verdiyim açıqlamada qadını qəti aşağılamamışam. Demişəm ki, bu gün məktəblərdə müəllimlər yox, müəllimələrdir. Müəllimələr də Allah tərəfindən göndərilib. Onlar ən yaxşı halda məlumat verə bilərlər, elm yox. Amma əlbəttə ki, istisna xanımlarımız var". O, bu gün Yer üzündə matriarxat dövrün başladığını deyib: "Bunun belə olması ilə bağlı hədislər də mövcuddur. Bunlar hamısı qiyamətin əlamətləridir. Hətta deyilir ki, qadınlar iş başında olacaq, kişilər zəifləyəcəklər. Həmin zəmanəyə gəlib çatmışıq artıq. Bu gün məktəblərdə qızlar da bir-birilərini bıçaqlayır. Hamısı da kişi müəllimlərin olmamasının fəsadlarıdır. Burada qadınları aşağılayacaq nə demişəm axı? Məni həyata gətirən anam olub, tərbiyəmlə məşğul olan da. Xanımları aşağılamıram. Biri də yazıb ki, "Akif İslamzadə deyir, qadınlar cəhənnəmlikdir". Belə şey olar?! Heç kim sözümü pisə yozmasın. Demişəm ki, peyğəmbər meracında cənnəti də göstəriblər, cəhənnəmi də. Cəhənnəm əhlinin əksəriyyəti qadınlar olub. Mən bunu hədislərdən sitat gətirmişəm. Bəzi jurnalistlər zəng edib açıqlama alırlar, amma fikirlərimizi oxuculara yanlış çatdırırlar".

Xalq artistinin bu açıqlaması sosial media istifadəçiləri tərəfindən narazılıqla qarşılanıb. Qeyd edək ki, bundan əvvəl şahmatçı Şəhriyar Məmmədyarovun qadınlar hər sahədə zəifdir deməsi böyük müzakirələrə səbəb olmuşdu. Ümumiyyətlə isə bir çox hallarda bu cür fikirləri səsləndirərkən, din əsas gətirilir, sitatlar çəkilir. Bu iddiaların dinlə əlaqəsi varmı?

**İlahiyyatçı Fərid Abdulla mövzu ilə bağlı "Yeni Müsavat"a bunları dedi:** "İnsanlar yaşlandıqca din üzrə fikirlər yürütməyə başlayır, mülahizələr yürüdürlər. Çox təəssüf ki, insanlar da bunu elə qəbul edir, elə bilirlər din elə həqiqətən budur. Kərbəlada Əli qızı Zeynəbin fəaliyyətinin incələnməsi və tədqiqatı son əsrlərin məhsuludur. Əgər daha qədim izahlara baxsaq, görərik ki, bir sıra alimlər Zeynəb xanıma da cəfa edib, ona kişimərkəzli yanaşıblar. Yəni tipik əsir qadın kimi, ikincidərəcəli insan kimi yanaşıblar. Yəni qadın idi, ağlayırdı, ah-vay edirdi, çarəsiz idi, əsir düşdü, İmam Hüseyn ona nəsihət verirdi ki, dözümsüzlük etmə və s. Yəni mütləq kişi hakimiyyəti zamanı qadın nə mövqedə olursa, o cür yanaşılıb. Lakin əsrlər keçdi, qadın haqları və sair məsələlər də öz işini gördü. Şərhlərə diqqət etsəniz görərsiniz ki, zamanla Zeynəb xanım fiquru təkamül edir sanki, tipik ağlayan, əziyyət görən qadından qəhrəman, bərabərhüquqlu, inqilabçı, sözü üzə deyən, İbn Ziyadı susduran, İmam Səccadı ölümdən xilas edən, sanki əsl atasının və anasının qızı kimi siyasi meydana atılan mübariz bir qadına çevrilir. Kərbəla faciəsində yaşı təxminən 55-dən çox olardı. Görürsünüz, qiraət fərqlərini? Yanaşma tərzini? Deyə bilərsiniz ki, dediyini sübut edə bilərsənmi? Bəli. Sadəcə, demək istəyirəm ki, müxtəlif qiraətlər səbəb olur ki, məsələni fərqli anlayaq. Ona görə də son əsrlərin alimləri yeni qiraət və baxışla yanaşmağa başlayıblar".




**İlahiyyatçı qadının döyməklə bağlı tez-tez dindən gətirilən sitatlara da fikir bildirib:** "İlk olaraq deyim ki, bizim dilə edilən üç tərcümədə (Z.Bünyadov, V.Məmmədəliyev; Ə.Musayev, Ə.Sultanov) bəsit "əd-darb" kəlməsi ki, ərəb dilini yeni öyrənən kəs bu sözün mənasının "vurmaq" olduğunu bilir, bu kəslər "döymək" kimi tərcümə edib, camaatı çətin vəziyyətə salıblar. Bu başqa. Son neçə ildir, islamçıları divara sıxışdıran ayələrdən biri "Nisa" 34-dür. Deyirlər ki, humanistlik, əxlaq-filan deyirsiniz, necə həll edirsiniz bu məsələni? Quran ki, özbaşınalıq edən, nifrət bəsləyən arvadı əvvəlcə nəsihət edin, sonra yataqlarınızı ayırın, alınmasa, vurun, başa salın - deyir. Nə deyirsiniz?

İki-üç yüz il öncə qadın haqları məsələləri elə də qabarıq deyildi. Bu məsələlər son dövrlərdə aktuallaşıb. Ona görə də əksər alimlər elə Quranın zahiri ayəsini götürüblər və vurun (və ya döyün) - lakin şəriət icazə verən həddə, fikrini dəstəkləyiblər. Yəni ayə belə deyir. Dünyanın hər yanında da qadının, sadəcə, doğmaq, ərə itaət etmək, qulluq etmək, evdə oturmaq, ağlı naqis, qabırğadan əmələ gələn, dır-dır edən və sair məxluq kimi olması qəbul edilirdi. Aktual deyildi. Qadının islahı üçün bu üç mərhələ vardı. Qadın nə qədər haqlı olsa da, talaqdan tutmuş hər şey ərinin əlindədir. Deməli, birinci yol bunu qəbul etmək, qadının haqlarını kişinin çevrəsində həll etməkdir. İkinci üsul isə son illər ərzində formalaşıb. İndi hüquqi dövlətdə yaşayan kimsə "Quran deyir, düzəlməsə, arvadını vur" adı ilə qadını döyə bilməz. Uzaqbaşı polisə düşəcək. Bəs necə olsun? Bəzi İslam alimləri başladılar ayələri təftiş etməyə. Onları tarixi, dövri, mədəni, təkvini və sair nəsnələrə ayırmağa. Yəni Quranın bəzi ayələri, sadəcə, dövrüdür, öz zamanına uyğundur, təkamül getdikcə hökm dəyişə bilər. Ardınca ayələri batin, sözlər üzərində tədqiq etməyə. Nəticəyə gəldilər ki, əd-darb sözü Quranda müxtəlif mənalarda işlədilib. Vurmaqdan tutmuş, səfər etmək, ayrılmağa kimi. Dedilər ki, burada ayrıl, ya çıx get - mənasındadır. Vurmaq yox. Kimi də bəzi rəvayətlərə istinad edib, vura bilərsən, sadəcə, yüngül, ağrı vermədən, nazik çubuqla - dedi. Kimi də əd-darbın şiddətli cinsi münasibət olduğunu da dedi. Əlqərəz. Nəticə, ya bu tərəfdir, ya da o tərəf. Ya deməlisən, vurun deyir, ya da oturub yumşaldıcı şeylər axtarmalısan. Üçüncü yol isə, sadəcə, susmaqdır".

**İT mütəxəssisi Fərid Pərdəşünas isə hesab edir ki, ümumiyyətlə, qadın və kişinin gücünü müqayisə etmək mənasızdır:** "Fiziki, bioloji baxımdan üstünlük və güclü olmaq çox keçmişdə qalıb. Robotlar və maşınlar bu problemi həll ediblər. İndi bir düyməyə basmaq kifayət edir ki, ağır fiziki işləri maşınlar görsün. Əqli üstünlük də mahiyyətin itirməyə başlayır. Xanımlar görsə şahmatda Şəhriyarı uda bilmir, "Google"un "Deepmind" süni intellektini salsınlar Şəhriyarın üstünə, bəs edəcək. Şahmatda hesablama gücündə süni intellektə çatmaq mümkün deyil. GPT5 təqdim olunanda da bir sıra əqli işlər sıradan çıxmış olacaq. Ümumiyyətlə, gələcək passivləşmiş insan modelinə doğru gedir. Kişi-qadın fərq etmir, hamı passivləşəcək - əqli və fiziki. Yox, dominantlıq baxımından müzakirə edirsinizsə, o məsələdə də pul kimdədir o güclüdür. Fərqi yoxdur qadındır, kişidir. Belə müzakirələrdə problem görmürəm. Əsl problem bir neçə il sonra süni intellektlər arasında "insan güclüdür, yoxsa biz?" müzakirəsi gedəndə olacaq".



"Unutmayın ki, xanımlar ən yaxşı halda məlumat verə bilərlər. Ancaq qadın elm verə bilməz. Bizim elm ocağımız yoxdur. Elmi ocaqda, universitetlərdə, məktəblərdə müəllim qalmayıb. Hamısı müəllimələrdir. Allah qadını belə yaradıb. Ona elm verilməyib. İstisnalar da olur. Məsələn, böyük şəxsiyyətlərin yanında çiyin-çiyinə qadınlar olublar. Üzeyir bəyin yanında Məleykə xanım, Niyazinin yanında Həcər və sairə. Onlardan danışıb qurtarmaq olmaz".

**Akif İslamzadənin bu sözlərinə məşhur psixoloq Əfsanə Rüstəmova da cavab verib. O, Cebhe.info-ya açıqlamasında təəssüflə bildirib ki, Akif İslamzadə öz fikrinin istinad nöqtəsini Allah olaraq göstərib:** "Bəzi inanc sahiblərinin qız uşaqlarının təhsilinə qadağa qoyduğu dövr hələ də davam edərkən cəmiyyət üçün faydalı sayılan insanların elmi cinsiyyətlə ayırması insana özünü qəribə hiss etdirir. İnanc sistemində hər kəsə Allahın bir adı və ya bir üzü daha yaxındır. Yəqin ki, Akif İslamzadə də bu aspektdən yola çıxaraq dəyərləndirib. Hər bir halda yaşı kamala gəlmiş insanlardan bunu eşitmək cəmiyyətə və sistemə inamı azaldır. Bu həyatda inamsız insandan daha təhlükəli heç nə yoxdur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ



## Utilizasiyaya hansı maşınlardan başlanılır?

**Azərbaycanda ekoloji sağlamlığın qorunması məqsədilə köhnə nəqliyyat vasitələrinin utilizasiyası prosesinə başlanılıb.**

Bunu Nazirlər Kabinetinin Kənd təsərrüfatı və ekologiya şöbəsinin müdiri Lətif Qasımov "Yaşıl dünya naminə həmrəylik: Dayanıqlı gələcək üçün tullantıdan dəyərə" adlı Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi əhalinin həyat şəraitinə ciddi təsir göstərir: "Bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 tədbiri də ekoloji sağlamlıq üçün yeni imkanlar yaradır".

Bəs ilk növbədə hansı avtomobillər dövriyyədən çıxarılacaq?

Bakupost.az-ın sualını **nəqliyyat üzrə ekspert Ərşad Hüseynov** cavablandırıb. Onun sözlərinə görə, utilizasiya prosesində ilkin olaraq istismara yararsız, müasir tələblərə cavab verməyən avtomobillərin dövriyyədən çıxarılması nəzərdə tutulub: "Əsas hədəf budur. Amma utilizasiya könüllü bir prosesdir. Yəni kiminsə avtomobilini əlindən almaq kimi bir hədəfi yoxdur. Utilizasiya prosesi elə bir işdir ki, burada onu tamamlayacaq, şərtləndirəcək xeyli işlər var və onlardan biri ictimai nəqliyyatın inkişafıdır. Ölkəmizdə ictimai nəqliyyat daha sürətlə inkişaf edəsə, komfort və digər kriteriyalarla bağlı məsələlər qaydasında olsa, bu proses daha uğurlu olacaq. Əgər ictimai nəqliyyat yerində saysa, hətta bir az geriyə getsə, insanlar məcbur olacaq ki, əllərində nə varsa, onda istifadəyə davam etsinlər. Yəni o halda utilizasiya prosesi uğurlu olmayacaq".

# Azərbaycanda elektron siqaret qadağası gündəmdə

## Həkimlər təhlükəlidir deyir, amma...; iqtisadçı: "Qadağan olunarsa, daha zərərli tütün məmulatlarına üstünlük verəcəklər"



**Avstraliya gələn həftədən etibarən apteklərdən kənarda elektron siqaretlərin satışını qadağan etməyə hazırlaşır. Hökumətin hazırladığı qanun layihəsində böyüklər apteklərdən elektron siqaret ala biləcək, yaşı 18-dən aşağı olanlar isə yalnız həkim resepti ilə onu əldə edə biləcəklər. Hökumət təcili tədbirlər görülməsə, nikotinə aludə olan nəslin yetişəcəyi ilə bağlı xəbərdarlıq etdiyi halda, elektron siqareti tərgitmiş gənclərə dəstək üçün əlavə vəsait ayrılacaq. İyulun 1-də qüvvəyə minəcək qanunla Avstraliya elektron siqaretləri qadağan edən ilk ölkə olacaq.**

Qeyd edək ki, bu ilin yanvarında Qazaxıstanda elektron siqaretlə bağlı qanun qəbul edilib. Sənədə əsasən, qadağanın pozulmasına görə elektron siqaretlərin satışına, idxalına və yayılmasına görə 50 günə qədər inzibati həbs, eyni əmələ görə, lakin cinayətkar qrupun tərkibində olduqda iki ilədək, daha böyük miqyasda olduqda beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası veriləcək.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili də aprel ayında Azərbaycanda elektron siqaretin istifadəsinin qadağan olunmasını təklif edib. Komitə sədri parlamentin iclasında çıxışında bildirib ki, dünyanın bir çox ölkələrində bu siqaret növü getdikcə qadağan edilir. T.Mirkişili apardığı araşdırmaya görə, elektron siqaret gənclər arasında geniş yayılan, dəb, moda halını alan amma gələcəkdə çox ciddi şəkildə fəsadlara yol açacaq siqaret çəkmək növüdür: "Əgər xanım sədr siz də icazə versəydiniz, Aqrar siyasət komitəsi ilə kiçik araşdırma aparardıq. Əksər ölkələrdə bu, qadağandır. Azərbaycanda buna qadağa yoxdur və il ərzində təxminin 3 milyona yaxın birdəfəlik elektron siqaret ölkəyə idxal olunur. Əgər iqtisadi cəhətdən bu, zərər verməzsə və ya digər məsələlər önə çıxmazsa, biz bu məsələ ilə bağlı təşəbbüslə çıxış edə bilərik".

Bəzi iddialara görə, elektron siqaretlərin idxalına qadağa qoyulması ilə bağlı təkliflərdə biznes amili də rol oynaya bilər. Çünki ölkəmizdə münasib şərait olan tütün sənayesini daha fəal inkişaf etdirməyi, daha çox siqaret ixrac etməyi planlaşdırırıq, çünki bu, valyuta tutumlu sahədir.

**İqtisadçı ekspert Eyyub Kərimli** mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, ümumiyyətlə, istehlak və idxal edilən məhsulun qadağan edilməsi həmin məhsulun bahalaşmasına səbəb olur: "Biz o halda o məhsulu qadağan edə bilərik ki, daxildə istehsal olsun. Daxildə istehsal yoxdursa, bunun qadağan edilməsində əsaslı səbəb görmürəm. Həmin məhsulların istehsalını ölkədə təmin edə bilsək, qadağan etməyə imkan olar. İndiki halda düşünürəm ki, bu qadağa əhəmiyyət kəsb etməyəcək, əksinə, hər hansı yollarla məhsullar Azərbaycana gətiriləcək. Bunların qiyməti daha da baha olacaq. Onun istehlakına da düşünmürəm ki, təsiri olsun. İnsanlar bundan istifadə etməyib, daha zərərli siqarətə, qəlyana, tütün məmulatlarına üstünlük verəcəklər". Əhali arasında isə təşviş var. Qeyd edilir ki, məktəb və liseylərdə 13,14 yaşlı oğlan və qızlar arasında çox təhlükəli bir vərdiş yaranıb. Tənəffüslərdə məktəblilər tualetlərdə elektron siqaret çəkirlər. Bununla bağlı sosial mediada da insanlar narahatlıqlarını bildirirlər.

Ekspertlərə görə, elektron siqaretlər tütün məmulatı olmadığı üçün dünya bazarında asanlıqla irəliləyir. Ona görə də nəzarət etmək çətindir. Çünki bu siqaretlər nə elektron, nə də ki, tütün məmulatı sayılır. Bir çox ölkələrdə tütün əleyhinə qəbul edilən qanunlar bunlara aid deyil. O da qeyd edilir ki, Azərbaycanda elektron siqaretlərin qaçaq mal variantı var. Lakin qaçaq mallar daha təhlükəlidir. Çünki onların mənşəyi bəlli deyil.

Mütəxəssislər onu da bildirirlər ki, elektron siqaret adi siqaretdən dəfələrlə zərərlidir. **Azərbaycan Tibb Universitetinin professoru Musa Qəniyev** "Yeni Müsavat"a deyib ki, elektron siqaretin (ES) ağciyərə təsiri klinik gedişinə görə koronavirusdan praktik olaraq fərqlənməyən atipik gedişli ikitərəfli kəskin ağciyər pnevmoniyasına səbəb ola bilir: "Misal üçün, "Nyu York Tayms" qəzetinin 5 avqust 2019-cu il sayında haqqında məlumat verilən, yanvar ayına qədər 2,5 mindən artıq insanın yoluxduğu və 60 nəfərin ölümünə səbəb olan atipik pnevmoniyanın koronavirus etiologiyalı olduğu iddia olunsa da, aparılan monitorinq bunun elektron siqaretlə əlaqədar olduğunu təsdiq etdi. Odur ki, bu xəstəlik ümumdünya elmi ədəbiyyatında EVALI adını alıb. Nikotinsiz elektron siqaretə gəlincə, nikotinli və nikotinsiz məhlulların kimyəvi tərkibindəki fərqlilik yalnız nikotinlə bağlıdır. 2023-cü ildə sübut olunub ki, ağciyərlərdə mikrosirkulyasiyanın daha ciddi pozğunluğunu törətdiyinə görə nikotinsiz elektron siqaretin dağıdıcı təsiri nikotinli elektron siqaretdən daha güclüdür. Qəribə görünsə də, bunu provitamin olaraq nikotinin orqanizmdə vitamin B3-ə (vitamin PP, nikotinamid, nikotin turşusu) çevrilərək nisbi korreksiya halı törətməsi ehtimalı ilə əlaqələndirirlər. Unutmaq olmaz ki, elektron siqaretdən dövri olaraq, hətta qısamüddətli istifadə olunsa belə, ağciyərlərin bərpası 2-3 aya qədər, asinusların regenerasiyası isə 12 ay və daha uzun müddət çəkir. ES-in satışı və istifadəsinə 2021-ci ilə qədər dünyanın 41 ölkəsi, o cümlədən, Aİ-nin Danimarka və Norveç kimi ölkələrində qadağa qoyulub. 2024-cü ildə bu siyahıya qardaş Türkiyə və Qazaxıstan da əlavə olunub. Misir, İordaniya, Oman, Qətər və sair kimi müsəlman ölkələrində isə elektron siqaret haram hesab edilərək qadağan olunub. Elektron siqaretin marketinqi hazırda əsasən internet və sosial şəbəkələr vasitəsilə edilir. Bu təbliğatın əsas istiqaməti və obyekti yeniyetmələr və uşaqlardır. Odur ki, üzümü bütün ailələrə tutub deyirəm, ES guya "qorxusuz su parı" hasil edir fikri tamamilə yanlış və əsassızdır. Övladlarınızı ES bəlasından qoruyun. Ölkəmizin gəncləri arasında ES-dən istifadənin artması səhiyyəmizin potensial problemi hesab olunmalıdır. Gənclərimizi bu bəladan qorumağın yeganə yolu elektron siqaretin ölkəyə gətirilməsi və istifadəsinə mütləq və qeyri-şərtsiz olaraq qadağanın qoyulmasıdır".

**Həkim əlavə edib ki, əslində elektron siqaret nikotin və digər zərərli maddələrin miqdarı göstərilən normativlərdən 10-30% çox olur:** "ES adi siqaretlərdən daha təhlükəli və qorxuludur. Bu siqareti çəkərkən buxar halında olan aerozol ağız boşluğu və tənəffüs yolu selikli qişasını yandırdığından çox ciddi xəstəliklərə səbəb ola bilir. ES-in xərçəng, kəskin ağciyər və ürək xəstəlikləri törətmə potensialı adi siqaretdən yüksəkdir. Digər tərəfdən, aerozolun ultrakiçik hissəcikləri (diametri 2,5 mkm) ağciyər toxumasının dərinliyinə nüfuz edir, selik baryerinə təsir göstərərək mukosiliar klirensi zəiflədə və peribronxial iltihaba, fibroza səbəb ola bilir. Aerozolun tərkibində olan bəzi maddələr, xüsusən akrolein mutagen təsir göstərə, xromosom aparatında ciddi dəyişikliklər törədə bilir. Əvvələr ES çəkməmiş şəxs cəmi 20 dəfə bu tüstünü ciyərlərinə alıb-buraxarsa, alveolların makrofaqlarında 60-dan artıq genin ekspresiyasında irsiyyətə verilmə ehtimalı olan dəyişiklik baş verir. Aerozolun tərkibində olan formaldehidin çox güclü kanserogen (xərçəngtörətmə) olması isə məlum həqiqətdir. Bu siqaretdən dövrü istifadə orqanizmin toxumalarını fermentlərin destruktiv təsirindən qoruyan zülal-inhibitorların aktivliyini kəskin şəkildə azaldır. Asılılıq törətmə potensialına görə isə adi siqaretdən heç də geri qalmır. ES-dən ümumi istifadə hepatit, vərəm və sairə kimi qorxulu, öldürücü infeksiyalara yoluxmaya 100%-li zəmin yaradır".

**Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Rəşt-Xəzər dəmir yolu açıldı - Azərbaycanın uduşu...

## Azərbaycanda yaradılan infrastruktur istənilən avtomobil axını üçün buraxılış imkanı təmin edə bilir

**Qərbin ən ağır sanksiyaları ilə üzləşən Rusiya və İran qarşılıqlı əlaqələri sürətlə dərinləşdirir. Ukraynaya qarşı işğalçı müharibədə Rusiyaya silah-sursat dəstəyi verən İran qarşılığında maksimum iqtisadi dividentlər əldə etməyə çalışır. İki gün əvvəl Rusiyadan qaz alışına dair ölkələr arasında imzalanan memorandum Tehranın iqtisadi fayda əldə edəcəyi istiqamətlərdən biridir. Rusiya qazını öz ərazisindən digər alıcılara ötürmək hesabına enerji habına çevrilmək arzusunda olan İran bu məsələdə Türkiyəni qabaqlamaq üçün dəridən-qabıqdan çıxır...**

İran həmçinin Rusiyanın Asiyadan getdikcə artan ticari-iqtisadi asılılığından faydalanmağa çalışır. Bu istiqamətdə onun Moskvaya təsir imkanları daha genişdir: Xarici ticarətdə Çindən asılılığın dərinləşməsi Rusiya hakimiyyətini Pekinə alternativə çevrilməkdə olan Hindistanla münasibətləri genişləndirməyə vadar edir. Bunun üçün isə Hindistanla ticarətin rahat və Qərbin nəzarətindənkənar ərazilərlə həyata keçirilməsi son dərəcə vacibdir. Məhz bu amil İranın Moskva üçün əhəmiyyətini daha da artırır, çünki Hindistandan yüklərin bu ölkə üzərindən çatdırılması ən əlverişli variantdır. Mumbaydan İranın Çabahar limanına gətirilən yüklərin oradan dəmir və avtomobil yolu ilə Xəzər sahillərinə və oradan isə Rusiyaya çatdırılması dəniz yolundan daha az vaxt, daha az xərc tələb edir. Şimal-Cənub Nəqliyyat Dəhlizi adlanan bu marşrutun Rusiya üçün əhəmiyyəti bu baxımdan qat-qat artır. Rusiya və onun prezidenti Vladimir Putin bütün gücü ilə dəhlizin qısa müddətdə tam işlək vəziyyətə gəlməsinə çalışır.

İyunun əvvəlində bir sıra xəbər agentliklərinin rəhbərləri ilə görüşən Rusiya prezidenti Vladimir Putin ŞDC ilə yüklərin Asiyadan Avropaya və əksinə Süveyş kanalından keçən marşrutdan ən azı 10 gün tez çatdırılacağını bildirib. Onun sözlərinə görə, dəhlizə qoyulan vəsaitlər özünü artıqlaması ilə doğruldacaq, çünki çox gəlirli olacaq.

Rusiyanın nəqliyyat naziri Vitali Savelyevin dediyinə görə, gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə yük axını tələbatdan asılı olaraq ildə 60-100 milyon tona qədər ola bilər. Lakin bu həddə çatmaq üçün dəhlizin inkişafına irihəcmli sərmayələr yatırılmalıdır. “N.Trans Lab” beynəlxalq agentliyinin ekspertlərinə görə, Şimal-Cənub nəqliyyat dəhlizinin genişləndirilməsi üzrə mövcud layihələr infrastruktur məhdudiyyətlərini aradan qaldırmaq üçün yetərli deyil. Belə ki, dəhlizin hər iki quru marşrutu üzrə yükdaşımaların artırılmasına İran, Qazaxıstan, Türkmənistanda dəmir yollarının, eləcə də Rusiya və Qazaxıstanın avtomobil yollarının aşağı ötürmə qabiliyyəti mane olur. Dəniz marşrutu hər iki ölkədə limanların ötürücülük imkanlarının məhdudluğu, İranda onlara dəmir yolu yanaşmalarının olmaması və Xəzər donanmasının bərbad vəziyyətdə olması səbəbindən çətinləşir.

Bu şəraitdə ekspertlər diqqətin Azərbaycandan keçən Qərb marşrutuna yönəldilməsini təklif edirlər. Belə ki, 2022 və 2023-cü illərdə Şimal-Cənub dəhlizi üzrə yükdaşımaların ümumi həcmi müvafiq olaraq 14,6 milyon və 17,6 milyon ton təşkil edib. Bunun 70 faizi qərb qolu ilə daşınıb.

“N.Trans Lab” ekspertləri qərb dəhlizinin inkişaf planlarına düzəlişlər etməyi təklif edirlər. Onların fikrincə, 7,7 milyard dollarlıq investisiyalar onun 80-100 milyon ton yükgötürmə qabiliyyətinə nail olmasına imkan verəcək. Bu yatırımın 157 milyon dolları Rusiya ərazisində layihələrə sərf oluna bilər. Azərbaycana 1,7 milyard dolların yatırılması təklif olunur ki, burada ən kapital tutumlu hissə ələvə magistral dəmiryolunun çəkilməsi və 244 kilometrlik Ələt-Astara hissəsinin elektrikləşdirilməsi olacaq.

İran ərazisində həyata keçirilməli olan layihələrin maliyyə tutumunu ekspertlər 15,8 milyard dollar həcmində dəyərləndirirlər. Lakin bu yatırımların hansı ölkə tərəfindən reallaşdırılması ciddi müzakirə mövzusudur. Proseslərin gedişi göstərir ki, İran xərclərin mühüm hissəsini Rusiyanın üzərinə qoymaq niyyətindədir. Ötən ilin mayında Moskva ilə Tehran Rəşt-Astara dəmiryol xəttinin tikintisi, İranın Xəzərsahili dəmiryol sisteminin təkmilləşdirilməsi üzrə saziş imzalayıblar. Rusiya bu məqsədlər üçün İrana 1,2 milyard avro dövlətlərarası kredit ayırmağa razılaşıb.

Bir neçə gün öncə İranın Ənzəli şəhərində Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tərkib hissəsi olan Rəşt-Xəzər limanı dəmiryol xətti istifadəyə verilib. İran mətbuatı xəbər verir ki, İranın şimalındakı Gilan əyalətində yerləşən Ənzəli Azad Ticarət və Sənaye Zonasında təşkil edilən mərasimdə İran prezidentinin səlahiyyətlərini icra edən Məhəmməd Moxberin iştirakı ilə Rəşt şəhərini Xəzər limanı ilə birləşdirən layihənin açılış mərasimi keçirilib. Açılışda Rusiya rəsmiləri də iştirak edib.

Məlumata görə, mərasimə İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaş, Gilan əyalətinin hökumət nümayəndələri və Xəzəryanı ölkələrin dövlət rəsmiləri qatılıb.

İran tərəfi bildirir ki, Xəzər dənizi ilə Fars körfəzini birləşdirəcək Rəşt-Xəzər dəmir yolu idxal-ixrac əməliyyatları üçün əhəmiyyətlidir. Bu yol gələcəkdə Rəşt-Xəzər və Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmiryoluna birləşərək Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafını təmin edəcək.

Maraqlıdır ki, indiyədək Rəşt-Xəzər limanı dəmiryol xəttinin tikintisinə dair hər hansı məlumat açıqlanmayıb. İran tərəfi tikintiyə 30 milyon dollar kredit cəlb olunduğunu açıqlayıb, laki kreditin haradan götürüldüyünə aydınlıq gətirilməyib. Bundan əlavə, Rəşt-Astara xəttinin tikintisi üzrə sazişin imzalanmasından bir ildən çox vaxt keçsə də, layihənin texniki-iqtisadi əsaslandırması belə başa çatdırılmayıb. Rusiya tərəfi buna İranın dəmiryol xəttinin keçəcəyi ərazilərdə torpaq ayrılması işlərini yubatmasının səbəb olduğunu açıqlayır: Tehran yolun cəmi 30 km-liyi üzrə torpaq ayrılmasını başa çatdırıb. Buna görə də Rəşt-Xəzər limanı hissəsinin tikintisinin Rusiya vəsaiti hesabına reallaşmadığını rahatlıqla söyləmək olar.

İran Xəzər limanına dəmiryol çıxışının yaranmasını Şimal-Cənub dəhlizi ilə bağlı çox böyük hadisə kimi təqdim etsə də, reallıqda bunun dəhlizlə yükdaşımalara real təsiri çox cüzi ola bilər. Çünki Xəzər limanına gətirilən yüklər çoxalsa belə, onların Rusiyaya ötürülməsi imkanları məhduddur. Buna Rusiyanın Xəzər liman infrastrukturunun aşağı tutumluluğu (23,5 milyon ton), və donanmanın çatışmazlığı, olan donanmanın yüksək aşınması imkan vermir. N.Trans Lab-ın hesablamalarına görə, İranla Rusiyanın Xəzərdə yükdaşıma donanması orta yaş həddi 35 il olan və ildə 8 milyon ton yük daşıma gücünə malik cəmi 171 gəmidən ibarətdir.




Bu baxımdan, dəmiryol xəttinin Astaraya qədər davam etməsi vacibdir. Rusiya tərəfi Rəşt-Astaranın tikintisinin 2027-2028-ci illərdə başa çatacağını elan edib. Ona qədər yüklər avtomobillə daşınacaq. Bu ay Azərbaycan, İran və Rusiya nümayəndələrinin avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalar məsələləri üzrə üçtərəfli görüşü keçirilib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən “Yeni Müsavat”a bildirildiyinə görə, görüşdə hər üç tərəfdən avtomobil nəqliyyatı sahəsi və gömrük xidmətinin, avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşıyıcıları assosiasiyalarının nümayəndələri, eləcə də daşıyıcı şirkətlərin rəhbərləri iştirak ediblər. Nümayəndə heyətləri Azərbaycanın Astara, Xanoba, İranın Astara və Rusiyanın Taqirkənd sərhəd-keçid məntəqələrinə səfər ediblər. Tərəflər sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydası ilə tanış olublar.

Qeyd edək ki, Azərbaycan tərəfində yaradılan infrastruktur mövcud şəraitdə istənilən avtomobil axını üçün buraxılış imkanı təmin edə bilir. Daha sonra Dərbənd şəhərində keçirilən görüşdə nəzarət-buraxılış məntəqələrində yoxlamalar, nəqliyyat vasitələrinin gözləmə müddətinin azaldılması istiqamətində tədbirlər, beynəlxalq avtomobil daşımaları bazarında Azərbaycan, İran və Rusiya daşıyıcılarının payının artırılması və digər məsələlər müzakirə edilib.

Nazirlik qeyd edir ki, görüş zamanı Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialı və perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Tərəflər Azərbaycan, İran və Rusiyanın tranzit potensialından tam həcmdə istifadəsi və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf etdirilməsi məqsədilə əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) 217-ci kilometrdən 243-cü kilometrədək olan hissəsi üzrə əsaslı təmir işləri aparır. Agentlikdən verilən məlumata görə, uzunluğu 26 kilometr olan sözügedən hissə 3-cü texniki dərəcəyə uyğun təkmilləşdirilir. Yolun eni 12 metrə qədər genişləndirilir. Layihə üzrə Astaraçay (243 km) və Ərçivançay (234.8 km) çayları üzərindəki körpülərdə nəzərdə tutulan təmir işləri yekunlaşıb. Pensərçay (221.3 km) və Ərçivançay (231.7 km) çayları üzərində mövcud körpülərin təmiri isə davam etdirilir.

Bundan əlavə, Azərbaycan tərəfi öz dəmiryol sistemini 2028-ci ilədək təkmilləşdirməyi hədəfləyir. Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlərlə bağlı Fəaliyyət Planına əsasən, 2024-2026-cı illərdə Ələt-Osmanlı-Astara dəmir yolunun yenidən qurulması planlaşdırılıb. Həmçinin bununla bağlı 2026-cı ildə Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri nəzərdə tutulub.

İyunun əvvəlində "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə deyib ki, Bakı-Astara dəmir yolu istiqamətində xüsusi plan üzə 2025-ci ildən layihələndirmə və tikinti işlərinin başlanması hədəflənir. O vurğulayıb ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi xüsusi proqram üzə həyata keçirilir.

**R.Rüstəmovun sözlərinə görə, hazırda Bakı-Yalama istiqamətində yollar yenidən qurulur:** “Növbəti ilin birinci yarım ilində bu istiqamətdə işlərin sona çatdırılması planlaşdırılır”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 110 (8483) 28 iyun 2024

iyun

## Bunları bilirsinizmi?

* Qarışqa öz ağırlığının 50 qatını qaldıra bilər.
* Yarım kilo bal hazırlamaq üçün arılar iki milyondan çox çiçəkdən nektar toplamalıdırlar.
* Tarakanlar təxminən 250 milyon il yaşasalar da, heç bir dəyişikliyə məruz qalmayıblar.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Fillər tullanmayan yeganə məməlilərdir.
* Bir inək həyatı boyu təxminən 200.000 stəkan süd istehsal edir.
* Erkək pinqvinlər 4 aylıq inkubasiya dövründə heç nə yemirlər.
* Siçan susuz dəvədən də çox qala bilər.
* Köçəri quşlar "V" formasında uçur və beləliklə, sərf etdikləri enerjinin 23 faizini qənaət edirlər.
* Xəstələnməyən yeganə heyvan köpəkbalığıdır.
* Bir ildə dənizlərdən tutulan balıqların çəkisinin üç qatı dənizlərə atılır.
* Tibetdə çay fincanını iki əllə tutmamaq hörmətsizlikdir.
* Lobsterlərin mavi qanı var.
* Dünyanın ən böyük yumurta köpəkbalığı.
* Köstəbək bir gecədə 90 metrlik tunel qaza bilir.
* Bir ilbizin dişlərinin sayı 25 minə çata bilər.
* İlbizlər yemək yemədən üç il yatır.
* Zürafələrin səs telləri yoxdur.
* Qütb ayıları solaxaydır.
* Fillər tullana bilməyən yeganə məməlilərdir.
* Kenqurular geriyə doğru yeriyə bilməzlər.
* Pişiklərin beynində 32 əzələ var.
* Kəpənəklər ayaqları ilə dad verirlər.



## Göz önündə qəribə naxışların yaranmasının səbəbi məlum oldu

**Göz önündə qəribə naxışların yaranmasının səbəbi məlum olub.**

Bununla bağlı britaniyalı terapevt Sermed Mejer "Daily Mirror" nəşrinə müsahibəsində danışıb.

Mejerin sözlərinə görə, daha çox uşaqlar və yeniyetmələr gözlərinin qarşısında qəribə naxışlar və ya ləkələr görürlər.

O, bu parlaq parıltıların yaranmasının səbəbini açıqlayıb. Mejer bildirib ki, insanların 75 faizi heç olmasa həyatlarında bir dəfə də olsa, gözlərini yumduqda bu parıltıları görüblər. Onun sözlərinə görə, bir qayda olaraq, bu, təhlükəli deyil, lakin bu parıltıların yaranma səbəbi ilə bağlı bir neçə fərziyyə var.

"Birincisi, birbaşa mexaniki simulyasiyadır. Yeni göz qapaqlarının sürtünməsi və ya onlara təzyiq nəticəsində torlu qişanın daxilində işığa reaksiya verən hüceyrələrin simulyasiyası baş verir. Bu yolla biz müxtəlif rənglər və formalar görürük", - deyə Mejer qeyd edib.

Bundan əlavə, foton şüalanması və ya maqnit sahələrinə məruz qalma nəticəsində gözlər qarşısında qəribə rəngli formalar meydana gələ bilər.

Terapevtin sözlərinə görə, bu cür rəng parıltıları adətən uşaqlar və yeniyetmələr tərəfindən görülür, böyüklərdə nadir hallarda rastlanır.

# Övladlığa uşaq götürüb qul kimi işlətdilər



**ABŞ-ın Virciniya ştatında amansız hadisə qeydə alınıb. Teleqraf.com xəbər verir ki, 63 yaşlı Donald Rey Lantz və 62 yaşlı Ceyn Kay evində yeniyetmə uşaqların köhnəlmiş paltarlarla dar kabinədə kilidli tapılmasından sonra həbs edilib. İddialara görə, onlar uşaqları qul kimi işlətmək üçün istifadə edib, ayaqlarını zəncirləyib, hətta tövlədə saxlayıblar. Polis tövlədə tapılan uşaqların yaşlarının 6, 9, 11, 14 və 16 olduğunu açıqlayıb.**

İddiaların ən dəhşətlisi, bu uşaqların hamısının qaradərili olması və sırf irqlərinə görə cütlük tərəfindən kölə edilməsidir. Qonşuların verdiyi ifadədə bildirilir ki, uşaqlara hətta yemək verilmirdi. Uşaqların ifadələrinə görə, onlar orta hesabla 12 saat tarlada işləyib və gündə yalnız hər 12 saatdan bir yemək yeyirmişlər. Donald Rey Lantzın və Ceyn Kayın məhkəməsinin yaxın günlərdə yekunlaşacağı gözlənilir.

## Hindistanlı cütlüyün qeyri-adi "əyləncəsi": bahalı restoranlarda hesabı ödəməmək üçün maraqlı üsul



**Hindistanda bir cütlük getdikləri bahalı restoranlarda hesabı ödəməmək üçün maraqlı üsuldan istifadə edir. Onlar getdikləri restorana özləri ilə milçək aparırlar, qəsdən qabın içinə atırlar, sonra isə ofisiantı çağırırlar və qalmaqal yaradırlar. Sonra da yeməyin pulunu ödəmədən müəssisəni tərk edirlər. Cütlüyün bu əməllərini ifşa edən Udit Bhandari adlı şəxs bildirib ki, onlar bunu əyləncə xatirinə edirlər, çünki onların pulları var.**

"Onlar bir neçə dəfə Dehlidəki beşulduzlu restoranlarda nahar etməyə gediblər və özləri ilə artıq hərəkət etməyən bir milçək gətiriblər", - deyə Bhandari bildirib. Sosial şəbəkə istifadəçiləri cütlüyün bu hərəkətini pisləyib və geniş təbliğat sayəsində günahkarların cəzalandırılacağına ümid etdiklərini deyiblər.

# Yapon alimlər robotlara insan dərisi "geyindirir"



**Tokio Universitetinin tədqiqatçıları robotlarda insanabənzər üz ifadələri yaratmağa imkan verən yeni üsul kəşf ediblər. Bu barədə "Quardian" nəşri məlumat yayıb.**

Məlumata görə, alimlər laboratoriyada yetişdirilmiş insan dərisi ilə eksperiment aparıb, həqiqi insan dərisi ilə robotların üzündə real təbəssüm yaratmağa çalışıblar.

Belə ki, robotlara transplantasiya üçün nəzərdə tutulan dəri insan bağlarını kopyalayaraq zədələndiyi zaman özünü bərpa edə bilir.

Alimlər bu kəşf ilə yaradılan robotların daha çox insanı xatırladacağını, onlara hissetmə imkanları gətirəcəyini, həmçinin kosmetika sahəsində, plastik cərrahların hazırlanmasında daha böyük nəaliyyətlər əldə edəcəklərini bildiriblər.

## Heyvanların buraxdığı qaza görə vergi



**İnək, qoyun və donuzların buraxdığı qazlara görə fermerlərdən vergi alınacaq. Maraqlı verginin Danimarkada alınması nəzərdə tutulub. Danimarkanın vergilər naziri Ceppe Bruus mövzu ilə bağlı verdiyi açıqlamada inək, qoyun və donuzların buraxdığı qazlardan alınması planlaşdırılan vergi ilə bağlı hökumət və fermerlər, sənaye və həmkarlar ittifaqı nümayəndələrinin razılaşdıqlarını deyib.**

Belə bir verginin tətbiq edilməsinin "dünyada bir ilk" olacağını qeyd edən Bruus Danimarkanın 2030-cu ilə qədər istixana qazı emissiyalarını 70 faiz azaltmağı hədəflədiyini bildirib.

Vergitutma çərçivəsində 2030-cu ildən etibarən heyvandarlıqla məşğul olan fermerlərdən hər bir ton karbon qazı ekvivalenti emissiyası üçün 300 kron (43 ABŞ dolları) vergi tutulacaq. Vergi 2035-ci ilə qədər 750 krona (108 dollar) yüksələcək.

Vergiyə dair təklif bu ilin sonuna qədər Danimarka parlamenti Folketinqə təqdim ediləcək.

Qeyd edək ki, buna bənzər qərarın 2025-ci ildə Yeni Zelandiyada qüvvəyə minəcəyi planlaşdırılırdı. Lakin fermerlərin tənqidindən və 2023-cü il seçkilərində hakimiyyət dəyişikliyindən sonra qanundan imtina edilib.

Birləşmiş Millətlər Təşkilatı (BMT) Paris İqlim Müqaviləsi çərçivəsində əsrin sonuna qədər qlobal temperatur artımını 2 dərəcə selsi altında saxlamaq məqsədinə nail olmaq üçün ölkələrdən 2050-ci ilə qədər dünya üzrə karbon emissiyalarını sıfıra endirmələrini istəyir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.